QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



“SƏS” qəzeti mənim üçün ən aziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 204 (5676) **27 oktyabr** 2018-ci il. “Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

## Bakı VI Beyn-əlxalq Humanitar Forumu dünyaya sülh və inkişaf, tolerantlıq mesajı verir

*Prezident İlham Əliyev: “Əsrlər boyu müxtəlif dinlərin, xalqların nümayəndələri Azərbaycanda bir ailə kimi sülh, əmin-amanlıq, mehribanlıq şəraitində yaşamışlar”*

Səh 2




“Azərbaycanla Belarus arasında əməkdaşlığın daha da inkişafı üçün geniş potensial var”



5

“ABŞ rəsmilərinin ölkəmizlə bağlı müsbət fikirləri bizim üçün vacibdir”



3

VI Bakı Humanitar Forumunun yekun bəyannaməsi qəbul edilib



3

Azərbaycan Fransa şirkətləri ilə əlaqələrini yenidən nəzərdən keçirə bilər



13

Ermənilər Con Boltonun bəyanatlarından təşvişə düşüblər



11

“Aprel hadisələri zamanı erməni lobbisi Qərb ölkələrinin isteblişmenti ilə fəal iş aparırdı”



6

9

“Ənənəvi media yanlış məlumatlandırma siyasətinə qarşı mübarizəni gücləndirməlidir”



12

Zəngilanın işğalından 25 il ötür



16

Azərbaycan beynəlxalq idman yarışları məkanına çevrilib



# Bakı VI Beynəlxalq Humanitar Forumunun dünyaya sülh və inkişaf, tolerantlıq mesajı verir

*Prezident İlham Əliyev: "Əsrlər boyu müxtəlif dinlərin, xalqların nümayəndələri Azərbaycanda bir ailə kimi sülh, əmin-amanlıq, mehribanlıq şəraitində yaşamışlar"*




***Bakı artıq altıncı dəfə Beynəlxalq Humanitar Forumuna ev sahibliyi edir. Bu forum bəşəriyyətdə maraq doğuran qlobal xarakterli məsələlərə dair geniş spektrli dialoqlar, fikir mübadilələri və müzakirələr aparmaq məqsədilə hər il tanınmış dövlət xadimlərini, elmin müxtəlif sahələri üzrə Nobel mükafatı laureatlarını və nüfuzlu beynəlxalq təşkilatların rəhbərlərini, o cümlədən, dünyanın siyasi, elmi və mədəni elitasının görkəmli nümayəndələrini bir araya toplayan mötəbər tədbirdir. Əbəs deyil ki, "Bakı prosesi" beynəlxalq müstəvidə önəmli təşəbbüs kimi qiymətləndirilməkdədir. O cümlədən, dövlət başçımız İlham Əliyevin bu forumdakı nitqi və önə sürdüyü əhəmiyyətli tezisləri, həm də belə qənaətə gəlməyə zəmin yaradır ki, artıq Azərbaycan və onun paytaxtı Bakı beynəlxalq aləmin mərkəzi roluna çevrilib. İstər multikultural və tolerantlıq dəyərləri, istər qlobal siyasi-iqtisadi problemlərin həlli və çıxış yolları, istərsə də münaqişələrin həll olunması prosesi - bütün bunların, məhz Bakı Forumunda müzakirə edilməsi ölkəmizin əhəmiyyətini bariz şəkildə nümayiş etdirməkdədir.***

### "Azərbaycan dünyada multikulturalizm ünvanlarından birinə çevrilmişdir"

Məhz bu mötəbər tədbirin rəsmi açılış mərasimində iştirak edən Prezident İlham Əliyev Forumun əhəmiyyəti barədə danışaraq, qeyd edib ki, Azərbaycan beynəlxalq humanitar əməkdaşlığa həmişə çox böyük diqqət verib və bu gün də bu faktor öz yerini tutmaqdadır. Belə ki, "Əsrlər boyu müxtəlif dinlərin, xalqların nümayəndələri Azərbaycanda bir ailə kimi sülh, əmin-amanlıq, mehribanlıq şəraitində yaşamışlar" deyə vurğulayan Prezident İlham Əliyev müasir Azərbaycan dövlətinin də çox dərin milli-mənəvi dəyərlər üzərində qurulduğunu bildirib. "Azərbaycan dünyada multikulturalizm ünvanlarından birinə çevrilmişdir" deyə qeyd edən ölkə başçımız, eyni zamanda, qeyd edib ki, əgər islam həmrəyliyi və multikulturalizm anlayışları vəhdət təşkil edərsə və dövlət siyasəti düzgün aparılarsa, bu, xalq tərəfindən də qəbul edilərsə, onda ölkələrdə problem olmayacaq: "Müasir Azərbaycan bunun əyani sübutudur".

### "Azərbaycan heç vaxt işğalla barışmayacaq"

Forum çərçivəsində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə də bağlı önəmli bəyanatlarını səsləndirən dövlət başçımız vurğulayıb ki, məhz bu münaqişənin həlli üçün yeganə yol Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınan ərazi bütövlüyünün bərpa edilməsidir. Bu baxımdan, Prezident İlham Əliyevin çıxışından, həm də belə nəticəyə gəlmək olar ki, artıq bütün beynəlxalq təşkilatlar bizim mövqeyimizi, birmənalı şəkildə dəstəkləyir. Xüsusilə, dünyanın birinci və ən ali beynəlxalq qurumu olan BMT, onun Baş Məclisi dəfələrlə qətnamələr qəbul edib. BMT Təhlükəsizlik Şurası dörd qətnamə qəbul edib ki, orada erməni silahlı qüvvələrinin işğal edilmiş torpaqlardan qeyd-şərtsiz və dərhal çıxarılması nəzərdə tutulur. Dövlətimizin rəhbəri, bununla bağlı, öz qətiyyətli mövqeyini forum iştirakçılarına və beynəlxalq aləmə çatdırıb: "Azərbaycan heç vaxt işğalla barışmayacaq".

Ölkə başçısı vurğulayıb ki, bu problemə baxmayaraq, ölkəmiz inamla inkişaf edib. Belə ki, Azərbaycan müstəqil dövlət kimi yaşayır, öz hesabına yaşayır və inkişaf edir və heç kimdən də asılı deyil. Çünki xalqımız müstəqilliyi hər şeydən üstün tutur. Ümumiyyətlə, VI Bakı Beynəlxalq Humanitar Forumuna olan diqqət, dünyanın nüfuzlu ictimai-siyasi xadimlərin iştirakı, bir daha onu göstərir ki, Azərbaycan düşünülmüş, uzaqgörən və praqmatik siyasət yürüdür. Dünyanı balaca ölkədə yığmaq, "düşünən beyin"lərlə bəşəriyyətdə maraq doğuran qlobal məsələləri müzakirə etmək Azərbaycanın nüfuzunun göstəricisidir.

### "Azərbaycan dünyada etibarlı tərəfdaş və dost ölkə kimi tanınır"

Yeri gəlmişkən, daha bir məqamı da, qeyd edə bilərik ki, bu gün Azərbaycanda yaşanan vətəndaş həmrəyliyi ölkəmizin uğurlu inkişafı üçün önəmli şərtdir. Ölkə rəhbərimizin bu barədə irəli sürdüyü fikirləri də belə, deməyə zəmin yaradır ki, bu həmrəylik beynəlxalq müstəviyə də öz müsbət təsirlərini göstərməkdədir. Prezident İlham Əliyevin "Azərbaycan dünyada etibarlı tərəfdaş və dost ölkə kimi tanınır" ifadəsi də bu reallığa söykənir. Eyni zamanda, Azərbaycan dünyada etibarlı tərəfdaş və dost ölkə kimi tanınır. Əbəs deyil ki, Prezident İlham Əliyev vurğulayıb ki, "Azərbaycan qonşu ölkələrlə səmimi və mehriban dostluq münasibətləri qurmuşdur".

Eyni zamanda, siyasi islahatların da aparılması ölkəmizin güclənməsinə öz töhfələrini verməkdədir. Dövlət başçımız vurğulayıb: "Azərbaycanda siyasi islahatların dərinləşməsi iqtisadi islahatlara böyük təkan verir". Əbəs deyil ki, iqtisadi uğurlar xalqımızın daha da yaxşı yaşamasına şərait yaradır və bu reallığı ölkə rəhbərimiz bu cür ifadə edib: "Adambaşına düşən sərmayələrin həcminə görə, Azərbaycan dünya miqyasında aparıcı yerlərdədir".

"Azərbaycan son 15 il ərzində iqtisadi sahədə ən sürətli inkişaf templərini nümayiş etdirmişdir" deyən dövlət başçımız ölkəmizdə sosial sahəyə çox böyük diqqət göstərildiyini də forum iştirakçılarının nəzərinə çatdırıb. Belə ki, buna misal olaraq, "ASAN XİDMƏT" mərkəzlərinin yaradılmasını və bu sahənin humanitar və sosial sahələrə verdiyi əhəmiyyətli səmərələrini də qeyd edə bilərik. Məhz bunun nəticəsidir ki, ölkə başçımız öz çıxışında vurğulayıb: "Azərbaycanda ictimai xidmətlər sahəsinə olan neqativ hallara tamamilə son qoyulmuşdur".

Ümumiyyətlə, dövlət başçımızın çıxışları və həmin çıxışlardan irəli gələn tezislər, həm də belə bir reallığı ortaya çıxarır ki, ölkəmizin inkişaf və tərəqqisini əhatə edən bütün sahələr qarşıdakı illərdə növbəti uğurlara doğru atılan münbit addımlardır. O da, əbəs deyil ki, Prezident İlham Əliyev Azərbaycanın dünya miqyasında güclü nəqliyyat mərkəzinə çevrildiyini bildirib, həmçinin, bu uğurlar digər ölkələrin də nəhəng layihələrdə iştiraklarına yol açır: "Azərbaycanın enerji, nəqliyyat, infrastruktur layihələri ölkələr arasında əlaqələri stimullaşdırır".

Nəticə olaraq, Bakı VI Beynəlxalq Humanitar Forumunun dünyaya sülh və inkişaf və tolerantlıq mesajı verdiyni qeyd edə bilərik. Dövlət başçımızın irəli sürdüyü hər bir fikri, məhz bu gerçəkliyi ehtiva etməkdədir.

***Rövşən NURƏDDİNOĞLU***

# Qalubiyyə vilayətinin qubernatoru: "Azərbaycan ilə Misiri sıx dostluq və qardaşlıq telləri bağlayır"

***Azərbaycan Respublikası Baş nazirinin müavini Əli Əhmədov VI Bakı Beynəlxalq Humanitar Forumunda iştirak edən Misir Ərəb Respublikasının Qalubiyyə vilayətinin qubernatoru Alaa Abdelhalimin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb. AZƏRTAC xəbər verir ki, Azərbaycanla Misir arasında yüksək səviyyəli dostluq əlaqələrindən danışan Baş nazirin müavini qeyd edib ki, iki ölkənin münasibətlərinin daha da inkişaf etməsində xalqlarımız arasında tarixi əlaqələrin və prezidentlərin qarşılıqlı səfərlərinin böyük rolu var.***



Əli Əhmədov Qalubiyyə vilayətinin qubernatorunun Azərbaycana səfərini, eyni zamanda, Bakı Beynəlxalq Humanitar Forumunda iştirakını dostluq əlaqələrimizə verilən bir töhfə kimi dəyərləndirib. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi haqqında məlumat verən Əli Əhmədov Ermənistanın Azərbaycan ərazisinin 20 faizini işğal etməsi nəticəsində bir milyondan çox insanın doğma yurd-yuvasından didərgin düşdüyünü diqqətə çatdırıb. Misirin Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini hər zaman dəstəklədiyini deyən Baş nazirin müavini Azərbaycan üçün bunun böyük əhəmiyyət kəsb etdiyini vurğulayıb.

"Azərbaycanı Misirlə sıx dostluq və qardaşlıq telləri bağlayır", - deyən Qalubiyyə vilayətinin qubernatoru Alaa Abdelhalim ölkəmizdə olmasından və Beynəlxalq Humanitar Forumda iştirakından məmnunluğunu ifadə edib. Qubernator Misirin Azərbaycanla iqtisadiyyatın müxtəlif istiqamətləri üzrə, xüsusən kənd təsərrüfatı, turizm, sənaye və humanitar sahələrdə əlaqələrin inkişafında maraqlı olduğunu bildirib.

Alaa Abdelhalim Qalubiyyə ilə Abşeron rayonunun qardaşlaşmasını, Abşeronda Azərbaycan-Misir dostluq parkının, Xırdalan şəhərinin mərkəzində Qalubiyyə küçəsinin, Misir-Ərəb təmayüllü məktəbin, Qalubiyyədə isə Heydər Əliyev Parkının, Azərbaycan küçəsinin və Birinci vitse-prezident Mehriban Əliyevanın adını daşıyan məktəbin açılmasını iki ölkə arasında dostluğun əyani təzahürü kimi qiymətləndirib. Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# "ABŞ rəsmilərinin ölkəmizlə bağlı müsbət fikirləri bizim üçün vacibdir"

"Artıq növbəti dəfə Amerika rəsmilərinin dilindən ABŞ-la Azərbaycan arasında strateji münasibətlərin strateji əhəmiyyət kəsb etməsi ilə bağlı fikirlərin səslənməsi müsbət haldır. Çünki Azərbaycan birmənalı olaraq həm iki tərəfli, həm də çoxtərəfli sahələrdə qarşılıqlı maraqlara söykənən tərəfdaşlığa üstünlük verir". Bu fikirləri SİA-ya Milli Məclisin vitse-spikeri Bahar Muradova ABŞ prezidentinin təhlükəsizlik üzrə müşaviri Con Boltonun Azərbaycana səfəri zamanı söylədiyi fikirlərə münasibət bildirərkən deyib.



O bildirib ki, Azərbaycan Amerika kimi dünya siyasətində vacib rol oynayan, bizim üzləşdiyimiz çətinlikləri, Dağlıq Qarabağ problemini nəzərə alsaq, ATƏT-in Minsk qrupunun həmsədri, BMT Təhlükəsizlik Şurasının 5 üzvündən biri olan ölkə ilə bu illər ərzində belə bir münasibətin əldə edilməsinə çalışırdı və bu baxımdan ABŞ rəsmiləri tərəfindən verilən dəyər ölkəmiz üçün vacibdir: "Hesab edirəm ki, biz bu imkanları nəticəyə çevirməyi bacarmalıyıq ".

B.Muradova qeyd edib ki, ABŞ-ın özü ilə iki tərəfli münasibətlərdən istifadə edərək bizi maraqlandıran problemlərin həllinə, həm də dünyanı təhdid edən təhlükələrə qarşı vahid alyansda çıxış etmək təcrübəmizi daha da genişləndirməliyik: "Hesab edirəm ki, Cənubi Qafqaza səfəri zamanı ABŞ prezidentinin milli təhlükəsizlik üzrə müşaviri Con Boltonun, eləcə də son zamanlar amerikalı rəsmilərin Azərbaycan haqqında söylədiyi fikirlərin çoxu məhz bu ruhdadır. Bununla da Amerika yüksək rəsmilərinin konkret nəticəyə gəldiklərini söyləmək olar və yaranan imkanlardan istifadə etmək lazımdır".

## Ayman Eraky: Azərbaycan vətəndaşları dini, mədəni, tolerantlıq şəraitində yaşayırlar



Bakı Beynəlxalq Humanitar Forumunu Azərbaycan tərəfindən irəli sürülmüş yaxşı təşəbbüs kimi dəyərləndirirəm. Forumun Bakıda keçirilməsi Azərbaycanın tolerantlıq modelinin dünyaya təqdim olunması baxımından xüsusi əhəmiyyət kəsb edib. Bu sözləri AZƏRTAC-a müsahibəsində VI Bakı Beynəlxalq Humanitar Forumunun iştirakçısı Misirin Yaxın Şərq Xəbər Agentliyinin (MENA) böyük redaktoru Ayman Eraky deyib.

"Prezident İlham Əliyevin Forumun açılışında söylədiyi nitqi çox maraqla dinlədim. Bir iştirakçı olaraq xüsusilə Azərbaycandakı iqtisadi inkişaf, tolerantlıq barədə maraqlı məlumatlar əldə etdim. Forumun Bakıda keçirilməsi Azərbaycanın tolerantlıq modelinin dünyaya təqdim olunması baxımından xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan vətəndaşları dini, mədəni, tolerantlıq şəraitində yaşayırlar. Forumun əhəmiyyətinə gəlincə, bu, təkcə Azərbaycan üçün deyil, bütün dünya üçün vacib tədbirdir. Burada çox önəmli mövzular müzakirə olundu", - deyə Ayman Eraky söyləyib.

## VI Bakı Humanitar Forumunun yekun bəyannaməsi qəbul edilib




Dünən VI Bakı Humanitar Forumunun yekun bəyannaməsi qəbul edilib. SİA-nın məlumatına görə, bəyannamədə qeyd olunur ki, Bakı Humanitar Forumunun işi əməkdaşlığın genişlənməsinə və inkişaf etməsinə töhfə verəcək . Bəyannamədə bildirilir:

"Yalnız insan potensialı və insan kapitalının inkişafına qoyulan sərmayələrin, dövrümüzün çağırışlarına tutarlı cavablar tapılmasının ən mühüm şərti olmaqla, həyat keyfiyyətinin yüksəldilməsinə yönəlmiş idarəetmə, istehsalat, elmi və informasiya - kommunikasiya texnologiyalarının təkmilləşdir məsini təmin etdiyini düşünürük. Azərbaycanda insan kapitalının qorunuv saxlanılması və artırılması istiqamətində əldə olunan və bütövlükdə dayanıqlı inklüziv inkişaf sahəsində yüksək nəticələr təmin edən böyük nailiyyətlər qazanıldığını təsdiq edirik. Ən yeni, o cümlədən fənlərarası bilik və vərdişlərin fasiləsiz təhsil proqramlarına inteqrasiyası yolu ilə insan kapitalının inkişafının dayanıqlı inkişafının ən vacib humanitar tərkib hissəsi olduğunu etiraf edirik. Ekoloji sivilizasiya haqqında təsəvvürlərin formalaşmasının, istehlak və istehsalın, təbii sərvətlərə qayğıkeş münasibətin səmərəli modellərinin tətbiqinə yönəlmiş müxtəlif fəaliyyətlərin həvəsləndirilməsini və iqlim dəyişiklikləri ilə bağlı zəruri tədbirlərin görülməsinə şüurlu münasibətin vacibliyi xüsusi vurğulanır. İnsan inkifaşı və humanitar əməkdaşlıq sahəsində ixtisaslaşan müxtəlif beynəlxalq və milli strukturları tolerantlıq və qarşılıqlı hörmət mühitinin formalaşdırılmasına, müasir qlobal və lokal çağırışların həllinə yönəlmiş forum, konfrans və dəyirmi masaların mütəmadi olaraq keçirilməsinə çağırırıq. Bu bəyannamənin qəbul olunmasını və ondan humanitar sahədə əməkdaşlığın gücləndirilməsi məqsədilə istifadə edilməsini zəruri sayırıq".

## Oman Xəbər Agentliyinin baş direktoru: Bakı Forumunun dünya üçün böyük əhəmiyyəti var



Bakıda olmağımdan məmnunluq hissi keçirirəm. Hər dəfə gələndə yeniliklərin, inkişafın şahidi oluram. VI Bakı Beynəlxalq Humanitar Forumu yaxşı təşkil olunub, mövzusu da aktualdır. Bu sözləri AZƏRTAC-a müsahibəsində Oman Xəbər Agentliyinin baş direktoru Məhəmməd bin Mübarək Əl-Ərimi deyib. Bildirib ki, Azərbaycanın dünya dövlətləri arasında söz sahibi olması əlbəttə təqdirəlayiqdir. Burada VI Bakı Beynəlxalq Humanitar Forumunun keçirilməsinin dünya üçün böyük əhəmiyyəti var. "Forumda müxtəlif dövlətlərin nümayəndələrinin iştirakı ilə qlobal problemlər müzakirə edilib, əhəmiyyətli mövzular ətrafında fikir mübadiləsi aparılıb. Bütün bunlar ümumilikdə dünya üçün faydalıdır", - deyə Məhəmməd bin Mübarək Əl-Ərimi vurğulayıb.

# Humanitar Forum çərçivəsində "Yanlış məlumatlandırma siyasəti - müasir dünyada sabitliyə təhdid" mövzusunda işçi sessiya keçirilib




***Oktyabrın 26-da VI Bakı Beynəlxalq Humanitar Forumu çərçivəsində AZƏRTAC-ın təşkilatçılığı ilə "Yanlış məlumatlandırma siyasəti - müasir dünyada sabitliyə təhdid" mövzusunda işçi sessiya keçirilib. Sessiyada Azərbaycan Prezidenti Administrasiyasının rəsmiləri, Milli Məclisin deputatları, yerli və xarici KİV-lərin rəhbərləri, tədqiqatçılar, beynəlxalq və regional media qurumlarının rəhbərləri və nümayəndələri, tanınmış ekspertlər iştirak edirlər. Sessiyanın işinə 21 ölkədən nümayəndə, 14 xarici media rəhbəri qatılıb.***

İki hissədən ibarət sessiyanın AZƏRTAC-ın İdarə Heyətinin sədri, Dünya Xəbər Agentlikləri Konqresinin və OANA-nın prezidenti Aslan Aslanovun və Rusiyanın TASS agentliyinin baş direktorunun birinci müavini, Dünya Xəbər Agentlikləri Konqresi Şurasının vitse-prezidenti Mixail Qusmanın moderatorluğu ilə keçən birinci hissəsində cəmiyyətin yanlış məlumatlandırılmasının ağır fəsadları, bunun bütün dünyada sülh və sabitlik üçün yaratdığı təhlükələrlə bağlı məruzələr dinlənilib.

AZƏRTAC-ın İdarə Heyətinin sədri Aslan Aslanov qonaqları salamlayaraq bildirib ki, ənənəvi Bakı Beynəlxalq Humanitar Forumu ən aktual məsələlərin, bəşəriyyəti düşündürən problemlərin müzakirə olunduğu qlobal bir platformadır: "Azərbaycan və Rusiya prezidentlərinin təşəbbüsü ilə yaranan Forum indi dünyanın hər yerindən alimlərin, ictimai xadimlərin, ekspertlərin, siyasətçilərin, iqtisadçıların, jurnalistlərin toplaşdığı bir məkandır. Forumun məqsədi texnoloji əsrdə bəşəriyyətin qarşısında duran qlobal məsələlərin müzakirə edilməsi üçün dünyanın parlaq beyinlərini bir araya toplayaraq nüfuzlu beynəlxalq platforma yaratmaq idi. Artıq altıncı Forumun baş tutması bu məqsədə uğurla nail olunduğunu deməyə əsas verir".

Sessiyanın mövzusuna toxunan Aslan Aslanov qeyd edib ki, müasir dövrdə yalan xəbərlər siyasi proseslərin gedişatını dəyişdirmək gücünə malikdir. Bunu nümayiş etdirən kifayət qədər misallar çəkmək olar. Azərbaycan torpaqlarının 20 faizini işğal etmiş Ermənistan ölkəmiz haqqında daim yalan xəbərlər yayır, münaqişənin mahiyyəti ilə bağlı dünya ictimaiyyətini çaşdıran məlumatlar tirajlayır. İşğal faktını ört-basdır etmək üçün erməni informasiya mənbələri buna azadlıq müharibəsi adı verirlər. Amma sözsüz ki, onların bu cəhdləri heç bir fayda vermir. Çünki artıq bütün dünya həqiqəti çox yaxşı bilir.



Jurnalistika indi çox mürəkkəb dəyişikliklərdən keçir, deyən AZƏRTAC-ın İdarə Heyətinin sədri diqqətə çatdırıb ki, hazırda jurnalistika qarşısında çeviklik və düşünülmüş addımlar tələb edən çağırışlar dayanır. "Əvvəllər də yalan informasiyalar var idi. Lakin indi onun formaları və yayılma sürəti elə dəyişib ki, hərdənbir media qurumu kimi biz özümüzü də qorumalı oluruq. Sosial şəbəkələr informasiya məkanını çox dəyişdi. Bizə xəbərlərimizi auditoriyaya rahat və operativ çatdırmaqla yanaşı, bizi həm də yeni problemlərlə üz-üzə qoydu. Feyk xəbərlər problemi də onlardan biri və hətta daha təhlükəlisidir", - deyə A.Aslanov bildirib.

Yalan xəbərlərin sosial bəla olduğunu deyən Rusiyanın TASS agentliyinin baş direktorunun birinci müavini Mixail Qusman bu problemin bütün dünyanı əhatə etdiyini söyləyib. O vurğulayıb ki, feyk xəbərlərin yayılmasının qarşısının alınması üçün ənənəvi KİV-lər sıx birləşməli, daha çox düzgün informasiya yaymağa çalışmalıdır.

Rusiya Dövlət Dumasının deputatı Dmitri Savelyev çıxışında bildirib ki, informasiya müharibəsinin məqsədi dünyanın mənzərəsini və təsir obyektinin məqsədlərini dəyişməkdir. Bu halda əlyetərli kommunikasiya kanallarından istifadə edilməklə mənbə üçün zəruri ictimai rəy yaradan informasiya translyasiya edilir.

Rusiyalı deputat qeyd edib ki, tarixdə informasiya müharibələri aparılması nümunələri çoxdur. Bu nümunələri diqqətlə öyrənmək və onlardan dərs almaq lazımdır. Dmitri Savelyev deyib: "2016-cı ilin aprelində Qarabağ münaqişəsi kəskinləşən dövrdə buna çox oxşar vəziyyət yaranmışdı. O vaxt Ermənistan və Qarabağ separatçıları eynilə 2008-ci ildə Gürcüstanda separatçıların etdiyi kimi hərəkət edirdilər. Erməni lobbisi Qərb ölkələrinin isteblişmenti ilə fəal iş aparır, Ermənistanın xeyrinə təhrif olunmuş informasiya yayır və dövlət səviyyəsində bu cür fikir formalaşdırırdı".

Rusiya Dövlət Dumasının deputatı qeyd edib ki, Azərbaycanda Qərb KİV-ləri ilə ciddi iş aparırdı. Bunun nəticəsində aparıcı beynəlxalq kütləvi informasiya vasitələrinin çoxunun redaksiya məqalələrində tədricən hadisələrə adekvat baxış üstünlük təşkil etməyə başladı. Vəziyyəti dəyişmək və dünya birliyinə obyektiv informasiyanı çatdırmaq üçün xeyli vaxt və qüvvə sərf etmək tələb olunurdu. Bu faktlar göstərir ki, "qaynar" münaqişələr informasiya hücumları ilə müşayiət olunanda kütləvi informasiya vasitələri ilə işin operativ təşkil edilməsi çox vacibdir.

Rumıniyanın AGERPRESS agentliyinin baş direktoru, Avropa Xəbər Agentlikləri Alyansının baş katibi Aleksandru Giboi qeyd edib ki, feyk xəbərlərlə mübarizədə informasiya agentliklərinin böyük rolu var. Lakin bunun üçün agentliklər daim inkişafda olmalı və yalan məlumatlar yayan resurslardan bir addım irəlidə getməlidir.

"Yalan informasiya aldadıcı, müəyyən maraqlara xidmət üçün istifadə olunur. Feyk xəbər insanların həyatına və hətta dövlətlərin işinə təhlükə yaradır. Müasir dövrdə KİV-lərə etibar azaldıqca xəbər standartları da aşağı düşür. Yalan xəbərlərin yayılmasında videolardan da istifadə olunur. Onların qarşısının alınmasında xəbər agentliklərinin çox vacib rolu var", - deyə baş direktor bildirib.

Aleksandru Giboi deyib ki, yalan məlumatların qarşısını almaq üçün məlumatın açıqlığından istifadə etmək, auditoriyanı feyk xəbəri necə ayird etməyi öyrətmək lazımdır.

Estoniya parlamentinin sədr müavini Kaale Laanet qeyd edib ki, insanlar yalanı doğrudan ayırmağı bacarmalıdır. O deyib: "Qarşımızda belə bir sual yaranır ki, biz bu cür informasiyaları bloklamalıyıqmı? Senzura tətbiq etməliyikmi? Demokratik cəmiyyətdə bu, mümkün deyil. Biz çox sayda düzgün informasiya yaymalıyıq ki, feyk xəbər görünməsin. Bunun üçün böyük resurslar lazımdır, həm insani, həm də maliyyə".

Kaale Laanet əlavə edib ki, yalan xəbərləri təkzib etmək olar. Lakin birinci xəbər düz və ya yalan olmasından asılı olmayaraq daha təsirlidir. Onu təkzib etmək səmərə vermir, əksinə, o xəbəri daha da aktuallaşdırır. Ən yaxşısı özümüzə aid olan xəbəri yaymaqdır. Öz baxışımızı əks etdirməkdir.

İranın İRNA agentliyinin baş direktoru Seyid Ziya Haşemi onlayn media ilə yanaşı, sosial şəbəkələrin də fərqli özəllikləri olduğunu söyləyib. Birinci özəllik ondan ibarətdir ki, onlar hər yerdə əlçatandır. Burada xəbərlər qısalığı və sürətlə yayılması ilə seçilir. Lakin sosial şəbəkələrin digər tərəfi isə orada əsasən sensasiya üçün istifadə edilməsi, obyektiv xəbərlərə az yer verilməsi ilə bağlıdır.

"Yalan istənilən doğru xəbərdən qat-qat sürətlə yayılır", - deyən Seyid Ziya Haşemi bunun tez bir zamanda siyasi çaxnaşmalar və hətta böhranlar yarada biləcəyini söyləyib. Buna görə də insanlara hələ aşağı yaşlardan yalan və doğru informasiyaları ayird etməyi öyrətmək lazımdır. İranda artıq bu təcrübədən istifadə olunmağa başlanılıb.

Sosial şəbəkələrin fəaliyyəti, onların əhatə dairəsinin genişlənməsi məsələlərinə toxunan ADA Universitetinin müəllimi Şəfəq Mehrəliyeva Facebook-un insanlara xəbər çatdırılmasında daha geniş imkanlara malik olduğunu deyib. Sosial media hər kəsə istənilən xəbəri istənilən vaxt oxumaq imkanları yaradır. Ənənəvi media öz xəbərlərini yaymaq üçün bu imkanlardan geniş istifadə edir. Məsələn, AZƏRTAC-ın informasiya məhsullarına sosial şəbəkələrdə hər ay 4-5 milyona yaxın baxış olur. Agentlik gün ərzində sosial mediada baxış üçün münasib olan 50-60 video istehsal edir. Onun auditoriyasının böyük hissəsini 25-34 yaşarası şəxslər təşkil edir.

*Ardı Səh. 5*

# Humanitar Forum çərçivəsində “Yanlış məlumatlandırma siyasəti - müasir dünyada sabitliyə təhdid” mövzusunda işçi sessiya keçirilib



**Əvvəli-Səh-4**

ADA Universitetində bu istiqamətdə geniş işlər aparıldığını söyləyən Şəfəq Mehrəliyeva “ASAN Radio” ilə birgə radioproqram hazırlandığını deyib. Burada biz universitetdəki Mükəmməllik Mərkəzindəki akademik təlimləri Avropa-Azərbaycan əlaqələri haqqında ictimaiyyəti məlumatlandıran birhəftəlik informasiya axınına çeviririk. ADA Universitetində media ilə bağlı təlimlərə xüsusi diqqət ayrılır. Media və kommunikasiya fakültəsində biz tələbələrə internetdən istifadə, informasiyanın düzgün istehlakı, etik qaydalar, jurnalistika ənənələri kimi məsələləri öyrədirik.

“Belarus Seqodnya” media holdinqinin baş direktoru Dmitri Juk bildirib ki, XXI əsrin əvvəllərindən başlayaraq bəşəriyyətin üzərinə yeriyən yalan informasiya axını “dürüst xəbər”, “jurnalistika etikası kodeksi” kimi anlayışların dəyişməsinə səbəb olub. Son vaxtlar kimi jurnalist saymaq olar bilinmir. Hər kəs özünə sayt açıb uydurma və ya özünün şərhləri ilə başqalarının xəbərlərini yaya bilir. Yəni, bu saytlarda nə cür istəsələr xəbər, foto və video yerləşdirmək mümkündür. Bu da dezinformasiya siyasətinin bir hissəsidir. Çünki belə adamlar məsuliyyətdən qaçırlar.

“Hoy Los-Angeles” qəzetinin baş redaktoru Alexandro Masiel rəhbəri olduğu nəşrin obyektiv xəbərlərin istehsalı və yayılması ilə bağlı təcrübəsini bölüşüb. O qeyd edib ki, ABŞ-da qeyri-düzgün informasiyaların yayılması hallarına tez-tez rast gəlinir. Biz gündəlik fəaliyyətimizdə etibarlı mənbələrə istinad etməyə, mütəmadi olaraq mətbuat mərkəzləri ilə əlaqədə işləyərək dəqiqləşdirmələr aparmağa üstünlük veririk. Əks təqdirdə, ehtiyatsızlıqdan da həqiqəti əks etdirməyən informasiyaların yayılması halları qaçılmaz olar. Sonra Rusiyanın TASS agentliyinin baş direktorunun birinci müavini Mixail Qusman və AZƏRTAC-ın Almaniya üzrə xüsusi müxbiri, OANA-nın baş katibi Vüqar Seyidovun moderatorluğu ilə sessiyanın ikinci hissəsi keçirilib.

AZƏRTAC-ın İdarə Heyətinin sədri Aslan Aslanov deyib ki, müasir dövrdə yalan informasiyanın geniş yayılmasının əsas səbəblərindən biri də hədsiz imkanlara malik texnologiyalardır. “Daha doğrusu, hədsiz imkanlara malik bu texnologiyalardan, eləcə də sayını, bəlkə də heç kəsin dəqiq bilmədiyi KİV-lərdən, xəbər portallarından, sosial şəbəkələrdən müxtəlif məqsədlər və maraqlar üçün istifadə olunmasıdır”, - deyə İdarə Heyətinin sədri bildirib. Qeyd olunub ki, klassik jurnalistika xəbər istehsalçıları qarşısında üç əsas tələb qoyur: dəqiqlik, obyektivlik və qərəzsizlik. İndi isə meyarlar itir, unudulur, artıq çoxları bunun heç fərqində də deyillər. Müasir mediada anonim mənbələrə istinadların xeyli çoxaldığını vurğulayan A.Aslanov deyib: “Mən öz praktikamızdan çıxış edib deyə bilərəm ki, AZƏRTAC heç vaxt anonim mənbəyə istinadla xəbər yaymır. Buna görə də xəbərlərimiz heç vaxt təkzib olunmur və pis vəziyyətdə qalmırıq”.

Aslan Aslanov qeyd edib ki, yanlış məlumatlandırma siyasəti xalqları, ölkələri, dinləri bir-birinə qarşı qoymaq, münaqişələri alovlandırmaq, insanları vuruşdurmaq, çaşqınlıq, vahimə, nifrət kimi məkrli niyyətlər üzərində qurulur. Yalan informasiya müəyyən qüvvələrə sərf edən fikir formalaşdırmaq məqsədi daşıyır. Çaşdırıcı məlumatlar daha geniş, daha sürətlə yayılır ki, bu da narahatlıq doğurmaya bilməz. Feyk xəbərlərin qarşısının alınmasının vacibliyindən danışan İdarə Heyətinin sədri deyib ki, yalan məlumatların təsirini azaltmaq üçün internet istifadəçilərində belə informasiyaların yayılma mexanizmləri, onları yayanların niyyətləri barədə təsəvvürlər formalaşdırmağa böyük ehtiyac var. Buna ali məktəblərdə, xüsusi seminarlarda, forumlarda və digər məlumatlandırıcı tədbirlərdə nail olmaq mümkündür. Bu yolla təxribat xarakterli məlumatların qarşısını almaq, onların təsirlərini minimuma endirmək olar.

Ərəb Xəbər Agentlikləri Federasiyasının baş katibi Fərid Əyar çıxış edərək bildirib ki, işçi sessiyanın mövzusu çox geniş və əhatəlidir. Yanlış xəbərlər insanlara, sosial qruplara, təşkilatlara və ölkələrə ciddi ziyan vura bilər. Biz xəbərləri mütləq analiz etməli, onların dəqiqliyini araşdırmalıyıq. Bilirsiniz ki, dezinformasiya siyasətini bəzi dövlətlər kiçik dövlətlərə qarşı həyata keçirir. Bunun məqsədi həmin dövlətlərdə qarışıqlıq salmaq və yaxud da onların siyasi rejimlərini devirmək olub. Bu təhlükəli dezinformasiya meyillərindən yaxa qurtarmaq üçün dəqiq siyasət hazırlanmalıdır. BMT dezinformasiya siyasətini qadağan edən qərarlar qəbul etməlidir və bu qərarlara əməl olunmalıdır.

Albaniyanın ATA agentliyinin baş direktoru Armela Krasniqi vurğulayıb ki, müasir dünyada yanlış xəbərlər böyük uğurlar qazanan demokratik dövlətlər üçün ciddi təhdidə çevrilib. Yanlış xəbərlərin qloballaşması və onlardan kommersiya məqsədilə istifadə çox təhlükəli məsələdir. İnsanları birləşdirə, onlar arasında anlaşmanı yarada biləcək məsələlər yanlış xəbərlər vasitəsilə xaos alətinə çevrilir. Bu gün elə şirkətlər var ki, onlar yanlış xəbərlərdən siyasi kampaniyalar və digər işlərdə alət kimi istifadə edirlər. Şübhəsiz, yanlış xəbərləri yayanlar çox hiyləgər insanlardır. Onlar hüquqlardan və azadlıqdan müdafiə üsulu kimi məharətlə istifadə edirlər. Ona görə də yanlış xəbərlərin yayılmasına qarşı qlobal mübarizə aparmaq lazımdır. Bu mübarizəyə hər birimiz qoşulmalıyıq.

Livan Milli Xəbər Agentliyinin (NNA) baş direktoru Laura Süleyman bildirib ki, dezinformasiya həmişə mövcud olub. Bu, heç də yeni məfhum deyil. Yanlış və ya açıq şəkildə yönləndirilən informasiyalarla ictimaiyyətin məlumatlandırılması müharibələr zamanı düşməni, eləcə də, sadə vətəndaşı manipulyasiya etmək üçün istifadə edilir. Feyk xəbərlər, əsl sosial bəladır və onların qarşısı alınmalıdır. Dezinformasiya istehsalçılarını tərksilah etməyin ən yaxşı yolu onların metodlarını hərtərəfli bilməkdir. Bu, bizə onların bunu etməyə cəhd göstərdikləri zaman işin əsasında nəyin dayandığını dəqiqləşdirməyə imkan verər.

Market Universitetinin beynəlxalq proqramlar üzrə administratoru, beynəlxalq əlaqələr üzrə mütəxəssis Piter Teys Dağlıq Qarabağ münaqişəsi zamanı Azərbaycana qarşı aparılan informasiya müharibəsi barədə danışıb. O, Azərbaycanın işğal olunmuş ərazilərinin erməni qəsbkarları tərəfindən talan edildiyini, mədəni və tarixi abidələrin dağıdıldığını deyib. Piter Teys Dağlıq Qarabağ münaqişəsi zamanı minlərlə azərbaycanlı qoca, qadın və uşağın qətlə yetirildiyini vurğulayıb, bütün bunların daha geniş coğrafiyada dünya ictimaiyyətinə çatdırılmasının vacibliyini bildirib.

Ermənilərin törətdiyi Xocalı soyqırımını nə qədər gizlətməyə çalışsalar da buna nail ola bilmədiklərini deyən Bakı Dövlət Universitetinin hüquq fakültəsinin dekanı Əmir Əliyev həmin hadisələr zamanı onlarla xarici mətbuatın bu barədə geniş məlumatlar yaydığını söyləyib. O, indiki dövrdə ermənilərin Xocalı ilə bağlı yalanlarını ifşa edən yüzlərlə sənədin mediada açıqlandığını, artıq bir çox ölkələrdə bu faciənin soyqırımı kimi qəbul olunduğunu diqqətə çatdırıb.

Türkiyənin Anadolu Agentliyinin layihə meneceri Elife Çekem feyk xəbərləri çox təhlükəli fenomen adlandırıb. Buna görə də media çox ehtiyatlı olmalıdır. Bu cür xəbərlər insanlar arasında təşviş və xaos yarada bilər. Xəbər agentlikləri dünyanın hər yerindən məlumatları anında əldə edir və yayır. Buna görə də hər bir xəbər ciddi şəkildə yoxlanılmalıdır. Media indi daha məsuliyyətli olmalı, insan haqlarını və etik qaydaları nəzərə almalıdır. Xəbər agentliyi mənfi xəbərlərin yayılmasına yol verməməlidir.

Bununla da “Yanlış məlumatlandırma siyasəti - müasir dünyada sabitliyə təhdid” mövzusunda işçi sessiya öz işini başa çatdırıb.



## “Azərbaycanla Belarus arasında əməkdaşlığın daha da inkişafı üçün geniş potensial var”

Azərbaycan Respublikası Baş nazirinin müavini Əli Əhmədov VI Bakı Beynəlxalq Humanitar Forumunda iştirak etmək üçün ölkəmizdə səfərdə olan Belarus parlamentinin sədr müavini xanım Marianna Şyotkina ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, Baş nazirin müavini Forumda iştirak üçün dəvəti qəbul etdiyinə görə Marianna Şyotkinaya təşəkkürünü bildirib. O, Belarus parlamenti sədrinin müavininin bu tədbirdə iştirakının ölkələrimiz arasındakı əlaqələrin daha da inkişafına öz töhfəsini verəcəyinə əmin olduğunu söyləyib.

Əli Əhmədov Azərbaycanla Belarus arasında ikitərəfli əlaqələrin uğurla inkişaf etdiyini, dövlət başçılarının qarşılıqlı səfərlərinin, keçirilən görüşlərin əməkdaşlığın genişləndirilməsində əhəmiyyətini vurğulayıb. Baş nazirin müavini Azərbaycan iqtisadiyyatının uğurları, ölkəmizdə sahibkarlıq, biznes və investisiya mühitinin yaxşılaşdırılması sahəsində aparılan islahatlar barədə də məlumat verib. Bildirilib ki, Azərbaycan və Belarus arasında sənaye, kənd təsərrüfatı, humanitar, İKT, turizm və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün böyük imkanlar var. Baş nazirin müavini Belarus iş adamlarının ölkəmizdə səmərəli fəaliyyəti üçün əlverişli şəraitin yaradıldığını vurğulayıb.

Xanım Marianna Şyotkina VI Bakı Beynəlxalq Humanitar Forumunun yüksək səviyyədə təşkilinə görə Azərbaycan hökumətinə minnətdarlığını bildirib. Qonaq ölkələrimiz arasında iqtisadi əməkdaşlığın inkişafı üçün geniş potensialın olduğunu və müxtəlif sahələr üzrə həyata keçirilən layihələrin bundan sonra da davam etdiriləcəyini diqqətə çatdırıb. Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə edilib.

## “Forum Azərbaycana əlavə imkanlar yaradır”



“VI Bakı Beynəlxalq Humanitar Forumunun keçirilməsini şərtləndirən iki əsas vacib məsələ var”. Bunu SİA-ya açıqlamasında millət vəkili Asim Mollazadə deyib. Onun sözlərinə görə, bu Forum Azərbaycanın öz dəyərlərini dünyaya açıqlaması üçün imkan yaradır: “Bu, Azərbaycanın illərlə formalaşan mədəniyyətlərin, sivilizasiyaların əməkdaşlıq mühiti ilə bağlı olan dəyəridir. Eyni zamanda, digər tərəfdən Forum şərait yaradır ki, Azərbaycanla həmfikir olan insanlar bir araya gələrək öz gələcək əməkdaşlığını və Azərbaycanla birgə bu dəlillərin dünyada müdafiəsini təşkil etsinlər”.

## BMT-nin nümayəndəsi: Azərbaycan “ASAN xidmət” modelini yaratdığı üçün qurur duymalıdır

Azərbaycan “ASAN xidmət” modelini yaratdığı üçün qurur duymalıdır. AZƏRTAC xəbər verir ki, bu barədə BMT-nin İnkişaf Proqramının Avropa və MDB ölkələri üzrə regional direktorunun müavini və direktor vəzifələrinin müvəqqəti icraçısı Rastislav Vrbenski deyib. O bildirib ki, Azərbaycan bu modeli yaratmaqla bir çox ölkələr üçün nümunə olub. Bu xidməti digər ölkələrə də ixrac etməklə Azərbaycan beynəlxalq aləmə öz töhfəsini verə bilər.

# Dmitri Savelyev: "Aprel hadisələri zamanı erməni lobbisi Qərb ölkələrinin isteblişmenti ilə fəal iş aparırdı"

İnformasiya müharibəsinin məqsədi dünyanın mənzərəsini və təsir obyektinin məqsədlərini dəyişməkdir. Bu halda əlverişli kommunikasiya kanallarından istifadə edilməklə mənbə üçün zəruri ictimai rəy yaradan informasiya translyasiya edilir. AZƏRTAC xəbər verir ki, Rusiya Dövlət Dumasının deputatı Dmitri Savelyev bu fikirləri VI Bakı Beynəlxalq Humanitar Forumu çərçivəsində keçirilən "Yanlış məlumatlandırma siyasəti - müasir dünyada sabitliyə təhdid" mövzusunda işçi sessiyada çıxışında söyləyib.



Rusiyalı parlamentari qeyd edib ki, tarixdə informasiya müharibələri aparılması nümunələri çoxdur, bu nümunələri diqqətlə öyrənmək və onlardan dərs almaq lazımdır. Deputat deyib: "2016-cı ilin aprelində Qarabağ münaqişəsi kəskinləşən dövrdə buna çox oxşar vəziyyət yaranmışdı. O vaxt Ermənistan və Qarabağ separatçıları eynilə 2008-ci ildə Gürcüstanda separatçıların etdiyi kimi hərəkət edirdilər. Erməni lobbisi Qərb ölkələrinin isteblişmenti ilə fəal iş aparır, Ermənistanın xeyrinə təhrif olunmuş informasiya yayır və dövlət səviyyəsində bu cür fikir formalaşdırırdı.

D.Savelyev vurğulayıb ki, o vaxt dünya KİV-ləri ilə çox fəal iş aparılırdı: "Qondarma "Qarabağ administrasiyası"nın nümayəndələri hər gün press-brifinqlər keçirir və jurnalistlərin suallarına cavab verirdi. Ermənistanın dövlət telekanalları peyklər vasitəsilə pulsuz efir vaxtı verirdi. Bundan əlavə, jurnalistlər mülki avtomobillərə minərək təmas xəttindən kənarda region boyunca sərbəst hərəkət edə bilirdilər. KİV işçiləri üçün hər səhər ön cəbhə xəttinə yaxın kəndlərə, o cümlədən Talış və Martuni kəndlərinə səfərlər təşkil edilirdi".

Rusiya Dövlət Dumasının deputatı qeyd edib ki, Azərbaycan da Qərb KİV-ləri ilə ciddi iş aparırdı. Bunun nəticəsində aparıcı beynəlxalq kütləvi informasiya vasitələrinin çoxunun redaksiya məqalələrində tədricən hadisələrə adekvat baxış üstünlük təşkil etməyə başladı. Vəziyyəti dəyişmək və dünya birliyinə obyektiv informasiyanı çatdırmaq üçün xeyli vaxt və qüvvə sərf etmək tələb olunurdu. Bu faktlar göstərir ki, "qaynar" münaqişələr informasiya hücumları ilə müşayiət olunanda kütləvi informasiya vasitələri ilə işin operativ təşkil edilməsi çox vacibdir".

# Akif Əlizadə: "Foruma dünya səviyyəsində yüksək maraq göstərilir"

"Bakı Humanitar Forumuna dünya səviyyəsində yüksək maraq göstərilir". SİA-nın verdiyi məlumata görə, bunu ADA Universitetində keçirilən Forumda Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti Akif Əlizadə deyib. Onun sözlərinə görə, ictimai tərəqqinin əsas təkanverici qüvvəsi elmdir: "Elm cəmiyyətin problemlərinin həllinə çox kömək edə bilər. Ümumiyyətlə, XXI əsr fizika əsri adlandırılır. Lakin biologiya sahəsi getdikcə daha çox dəyər qazanmağa başlayıb. Biologiya sahəsində olan tədqiqatlar dəfələrlə çoxalıb. Yaxın illərdə molekulyar biologiya sahəsində də ciddi irəliləyişlər gözlənilir. Bu gün İKT-nin inkişafı bizim həyatımıza çox təsir edib. Bu gün bütün dünyada humanitar elmlərə daha az diqqət göstərilməyə başlanılıb. Texniki sahələrə isə diqqət artıb".



Akif Əlizadə qeyd edib ki, Ermənistan 25 ildir Azərbaycan ərazilərinin 20 faizini işğal edib: "Ermənistanın Azərbaycana təcavüzü nəticəsində qaçqın və məcburi köçkünlərin sayı 1 milyondan artıqdır. Azərbaycan qaçqın və məcburi köçkünlər üçün son 15 ildə 6 milyard dollar pul xərcləyib. Bu məbləğ onların həyat səviyyəsinin, təhsil almalarına xərclənib.

# Əbülfəs Qarayev: "Forumda iştirak edən ölkələr Azərbaycanın ərazi bütövlüyünü tanıyır"



"Bakı Humanitar Forumunda səslənən fikirlərdən belə başa düşülür ki, forumda iştirak edən ölkələr Azərbaycanın ərazi bütövlüyünü tanıyır. SİA xəbər verir ki, bunu mədəniyyət naziri Əbülfəs Qarayev deyib. Nazir əlavə edib ki, Bakı Humanitar Forumu ilk dəfə Azərbaycan və Rusiya Prezidentlərinin birgə təşəbbüsü ilə keçirilib: "Bu təşəbbüs artıq bütün hüdudları keçərək beynəlxalq tədbirə keçib. Bu təşəbbüs çox mötəbər təşkilatlar tərəfindən dəstəklənir. Bu gün bu tədbirə bir çox beynəlxalq təşkilatlar fəal şəkildə iştirak edirlər. Biz onlara verdikləri dəstəyə görə təşəkkür edirik".

Ə.Qarayev deyib ki, Bakı prosesi qarşımızda duran hədəflərə doğru atılan addımdır: "Bakı prosesinin uğurlu olması rəqəmlərdən də görünə bilər. Forumda 170-a yaxın ölkə də iştirak edib. Bu, onu göstərir ki, bu gün Azərbaycan münaqişələrin aradan qaldırılması, həyatımısın sadələşdirilməsi üçün toplanan məkana çevrilib". Ə.Qarayev deyib ki, forumun materialları çap olunacaq.

# AZƏRTAC ilə FENA xəbər agentliyi arasında Anlaşma Memorandumu imzalanıb

Oktyabrın 26-da Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC) və Bosniya və Herseqovinanın Federal Xəbər Agentliyi (FENA) arasında Əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalanıb.

Memorandum VI Bakı Beynəlxalq Humanitar Forumunun "Yanlış məlumatlandırma siyasəti - müasir dünyada sabitliyə təhdid" mövzusunda keçirilən işçi sessiyası çərçivəsində imzalanıb. Sənədi AZƏRTAC-ın İdarə Heyətinin sədri Aslan Aslanov və FENA xəbər agentliyinin baş direktoru Elmir Huremoviç imzalayıblar. Anlaşma Memorandumu agentliklər arasında gündəlik xəbərlərin, foto və video informasiyaların, həmçinin mütəmadi olaraq kitabların, informasiya və arxiv sənədlərinin mübadiləsini nəzərdə tutur.



Qeyd edək ki, FENA agentliyi Bosniya və Herseqovina hökumətinin qərarı ilə 2000-ci ildə BH Press və Habena agentliklərinin birləşdirilməsi əsasında yaradılıb. Agentlik ölkədə əsas informasiya mənbələrindən biridir.

# Bəhruz Quliyev: "Con Boltonun fikirləri ABŞ-Azərbaycan münasibətlərinin inkişafının təzahürüdür"

*"Birləşmiş Ştatların Prezidentinin milli təhlükəsizlik məsələləri üzrə müşaviri Con Boltonun Azərbaycana səfəri ilə bağlı "Tvitter" hesabında müsbət fikirlərini bölüşməsi, xüsusilə, Prezident İlham Əliyevlə görüşü əsnasında dövlətimizin başçısına təşəkkürlərini ünvanlaması, ümumiyyətlə, bu səfərin təəssüratları barədə irəli sürdüyü xoş fikirlər ABŞ-ın və Avropanın ölkəmizə münasibəti çərçivəsində qiymətləndirilə bilər". SİA xəbər verir ki, bunu Trend-ə siyasi analitik, "Səs" qəzetinin baş redaktoru Bəhruz Quliyev sözügedən mövzuya münasibətini açıqlayarkən deyib.*



Onun sözlərinə görə, əbəs deyil ki, ABŞ Prezidentinin müşaviri Azərbaycanla əlaqələri onlar üçün yüksək prioritet olaraq dəyərləndirib və ölkəmizin əsas tərəfdaşı olduğunu vurğulayıb: "Söz yox ki, bu amil Azərbaycanın istər bölgədə, istərsə də beynəlxalq aləmdəki siyasi, iqtisadi və digər sahələri əhatə edən nüfuzunun göstəricisidir. İstər qlobal iqtisadi layihələrin həyata keçirilməsində, istər regionun təhlükəsizliyində, istərsə də digər məsələlərdə ABŞ-Azərbaycan münasibətləri hər zaman prioritetlik təşkil edib. Qarşılıqlı münasibətlər fonunda gerçəkləşdirilən məsləhətləşmələr, müxtəlif faktorlar əsasında diplomatik mübadilələrin həyata keçirilməsi bu fikirləri kifayət qədər sübuta yetirir".

Siyasi analitikin fikrincə, C.Bolton bütövlükdə Azərbaycanla qurulmuş əlaqələri postsovet məkanında ən münbit münasibət kimi gördüyünü gizlətmir və bu kontekstdən çıxış edərkən, enerji təhlükəsizliyinin təminatı, beynəlxalq terrorizmlə mübarizə kimi məsələlər öz öncüllüyünü qoruyub saxlamış olur: "Əlbəttə, bütün bunlar ölkəmizin regiondakı nüfuzunu daha da artırır, qarşıda dayanan müəyyən məsələlərin həyata keçirilməsinə stimul verir. Bu, bir daha Azərbaycanın dünyadakı reytinqinin nə qədər yüksəkdə olduğunu göstərir. Çünki biz dəfələrlə müxtəlif beynəlxalq təşkilatların keçirdikləri və demək olar ki, bütün sahələri əhatə edən sorğularının statistik nəticələrindən də bu reallıqları görmüşük, bu gün də görməkdə davam edirik".

"Səs" qəzetinin baş redaktoru digər bir amilə də toxunaraq bildirib ki, C.Boltonun Azərbaycana səfəri öncəsi bir sıra qərəzli və məqsədləri bəlli olan təşkilatlar onun qarşısında "tələb" qoydular ki, Bakıda insan hüquq və azadlıqlarının "pozulması" ətrafında fikirlərlə çıxışlar etsin. Lakin o, bu kimi lazımsız və sübuta yetirilməyən "tələbləri" ümumiyyətlə nəzərə almadı: "Çünki cənab Bolton Azərbaycanda aparılan bütün sahələrdəki islahatları, o cümlədən, demokratikləşmə prosesinin nə qədər yüksək səviyyədə mövcud olduğunu yaxşı bilir. Bu çərçivədən çıxış etsək, biz Con Boltonun ümumiyyətlə, sözdə müxalifət kimi adlandırılan "liderlərlə" görüşmək marağında olmadığını gördük. Belə ki, bu gün ABŞ dövlət rəsmisinin bu addımı Qərbin belə müxalifətə maraq göstərməməsi anlamını daşıyır. Yəni Qərb dırnaqarası müxalifətlə deyil, gerçək işlər aparan Azərbaycan iqtidarı ilə davamlı iş birliyinə marağını nümayiş etdirir".

B.Quliyev son olaraq bildirib ki, bütövlükdə, C.Boltonun açıqlamaları, bəyanatları, eləcə də sosial şəbəkədə bölüşdüyü fikirlər ABŞ-ın hakim dairələrinin Azərbaycana münasibətdə ölkəmizə demokratiyanı ixrac etmək, bu istiqamətdə tövsiyələr vermək görüntüsünü deyil, əksinə, beynəlxalq əlaqələrin möhkəmləndirilməsinə, qarşılıqlı hörmətə və hüquqa dəyər verməsi gerçəkliyini əks etdirir: "Daha dəqiq desək, bu amillər ABŞ-ın Azərbaycanla münasibətləri fonunda bu ölkənin siyasi baxışlarının daha mütərəqqi əsaslara söykəndiyini bariz şəkildə göstərir. Beləliklə, Con Boltonun fikirləri ABŞ-Azərbaycan münasibətlərinin inkişafının təzahürü olaraq dəyərləndirilə bilər".

**Rövşən**

# Bakıda keçirilən Beynəlxalq Humanitar Forumun beynəlxalq mötəbər tədbirlər sırasında yeri yüksək qiymətləndirilir



*Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədr müavini Sahibə Qafarovanın yap.org.az-a müsahibəsi*

**- Sahibə xanım, Bakıda VI Beynəlxalq Humanitar Forumu öz işinə başlayıb. Siz, bu Forumun əhəmiyyətini necə qiymətləndirirsiniz?**

- Bakıda keçirilən VI Beynəlxalq Humanitar Forumu artıq dünyada sülh və birgəyaşayışın əhəmiyyətinin bir daha ifadə olunduğu, həlli tələb olunan qlobal məsələlərin, beynəlxalq ictimaiyyəti ciddi təhdid edən islamofobiya, ksenofobiya, ayrıseçkiliyin aradan qaldırılması yollarının müzakirəsi üçün önəmli platforma kimi qəbul olunur. Aktual problemlərin həlli, dünyada yaşanan humanitar böhranların aradan qaldırılması istiqamətində yolların araşdırılması üçün belə platformaların təşkili olduqca mühüm əhəmiyyət kəsb edir. Bakı Beynəlxalq Humanitar Forumu dünyanın tanınmış elm və siyasi xadimlərinin, dövlət rəsmilərinin, jurnalistlərin məhz bir yerə toplaşıb problemlərin həllini tapmağa şərait yaradır.

"Yeni dünya və yeni insan formalaşdıraq: kreativlik və insan inkişafı" mövzusunda keçirilən VI Beynəlxalq Humanitar Foruma 86 ölkə və 24 beynəlxalq təşkilatdan 581 nümayəndə qatılıb. Foruma beynəlxalq maraq və tədbirə qatılanları sayı ildən - ilə artır. Ona görə də, bu Forumun beynəlxalq mötəbər tədbirlər sırasında yeri yüksək qiymətləndirilir. Ümumiyyətlə, Azərbaycan artıq öz təcrübəsində bu kimi qlobal tədbirlərə uğurla evsahibliyi etmək bacarığını sübuta yetirib. Bu mənada altıncı Beynəlxalq Humanitar Forum da kifayət qədər əlamətdar və məhsuldar keçməklə, ölkəmizin sivilizasiyalar və mədəniyyətlər arasında dialoqa, multikulturalizm ənənələrinin geniş yayılmasına, müasir dövrdə texnologiya və elm əsaslı iqtisadiyyatın təşviq olunmasına verdiyi əhəmiyyəti bi daha nümayiş etdirdi.

Yeri gəlmişkən, qeyd etmək istərdim ki, cənab Prezident İlham Əliyevin Forumda iştirakı və çox dərin məzmunlu çıxışı böyük maraqla qarşılandı. Forumda iştirak edən qonaqlar cənab Prezidentin çıxışını, Onun problemləri çox qətiyyətlə və açıq mətnlə ifadə etməsini, yaranmış situasiyada çıxış yollarını göstərməsini yüksək qiymətləndirdilər.

**- Forumda müzakirə olunan məsələlər haqqında nə deyə bilərsiniz? Bildiyimiz kimi, Forumun gündəliyi kifayət qədər zəngindir...**

- Forumda gələcək dünyamızı formalaşdıracaq kreativ ideyalar və onların həyata keçirilməsi yolları, humanizm və bəşəri məsuliyyətin zəruriliyi, dayanıqlı inkişaf məqsədləri və digər mühüm məsələlər müzakirə olunur. Müzakirə olunan məsələlər sırasında mən təhsil məsələlərini xüsusi qeyd etmək istəyirəm. Bütün həyatı təhsillə bağlı olan, uzun illərdir bu sahədə çalışan bir insan kimi təhsil məsələlərinin belə bir mühüm Forumda müzakirə olunmasını olduqca təqdirəlayiq hal hesab edirəm. Qeyd etməliyəm ki, ilk plenar iclas da məhz bu məsələyə həsr olunmuşdu və "Təhsil və elm insan kapitalının inkişafı kontekstində" adlanırdı. Təbii ki, ilk panel müzakirələrinin bu mövzuda aparılması, təhsillə bağlı geniş diskussiyanın təşkili heç də təsadüfi deyil və Azərbaycanda təhsilin inkişafına göstərilən yüksək diqqətin əyani təsdiqidir. Cənab Prezident İlham Əliyev də Forumdakı dərin məzmunlu nitqində təhsilin inkişafı və təhsildə müasir metodların tətbiq edilməsinin prioritet məsələlərdən biri olduğunu vurğuladı.

Bilirsiniz ki, Azərbaycan dövləti innovasion cəmiyyət quruculuğunu əsas hədəflərdən biri kimi müəyyənləşdirib. Bu isə bilik iqtisadiyyatına, təfəkkür iqtisadiyyatına əsaslanır, ideya və təşəbbüslərin fasiləsiz təkrar istehsalını, məhsuldar qüvvəyə çevrilməsini şərtləndirir. Başqa sözlə deyilsə, qüdrətli Azərbaycan dövlətinin, demokratik cəmiyyət quruculuğunun, xalqın maddi və mənəvi rifahının başlıca qarantı rolunda çıxış edən - məhz cəmiyyətin intellektual potensialıdır. Bu zaman isə ölkəmizdə elmin və təhsilin üstün inkişafına nail olmaq əsas hədəflərdən biri kimi çıxış edir və Azərbaycanda təhsil siyasətinin formalaşdırılması təhsil sistemində aparılan islahatların sosial-iqtisadi əhəmiyyətinin artırılması vacib məsələ kimi qarşıya qoyulub. Tam məsuliyyətimizlə deyə bilərik ki, son dövrlərdə yüksək ixtisaslı kadr hazırlığında yeni yanaşma və metodologiyaların tətbiqi, ali təhsil müəssisələrinin muxtariyyətinin genişləndirilməsi, tələbə qəbulu qaydalarının təkmilləşdirilməsi, rəqabətəsaslı təqaüd sisteminin yaradılması, universitetlərdə keyfiyyətin təminatı mərkəzlərinin qurulması, məzunların işlə təmin olunmasına xidmət edən karyera mərkəzlərinin fəaliyyətinin effektivliyinin yüksəldilməsi və ali təhsil müəssisələrində elmi fəaliyyət nəticələrinin səmərəliliyinin artırılması istiqamətlərində görülən işlərin məntiqi nəticəsidir ki, Azərbaycanda təhsil sistemində çox böyük nailiyyətlər, müsbət dinamika müşahidə olunmaqdadır. Ölkəmizdə təhsil infrastrukturunun müasirləşdirilməsi istiqamətində mühüm işlər görülüb, 3100-dən artıq orta məktəb tikilib və ya əsaslı təmir olunub. Bu isə təhsildə infrastruktur məsələlərin yüksək səviyyədə həllini şərtləndirib. Eyni zamanda, Azərbaycan təhsilinin inteqrasiyasını sürətləndirmək, ölkəmizdə peşəkar, savadlı kadrların hazırlanması məqsədilə müxtəlif proqramlar icra olunub. Ali təhsil müəssisələrində çox ciddi islahatlar aparılıb, təhsilin keyfiyyəti xeyli yaxşılaşdırılıb. Bu gün Azərbaycanın ali məktəblərinin beynəlxalq reytinqi xeyli artıb. Görülən işlərin nəticəsində Azərbaycanda müasir dövrün tələblərinə uyğun güclü təhsil sistemi formalaşmışıb.

**- Təhsil məsələlərinə toxundunuz. Bu sahənin inkişaf perspektivləri haqqında nə deyə bilərsiniz?**

- Bu sualınızın cavabı olaraq mən bir vacib məqama toxunmaq istəyirəm. Azərbaycan dövləti həmişə müəllim peşəsinin nüfuzunu yüksəltmək üçün ardıcıl tədbirlər görür, bu sahədə bacarıqlı, savadlı kadrların hazırlanmasına diqqət göstərir. Atılan stimullaşdırıcı addımlar gənclərdə bu müqəddəs peşəyə marağı daha da artırıb. Azərbaycanda müəllim işləmək istəyən gənclərin sayının 3 dəfədən çox artması özlüyündə böyük bir nailiyyətdir. Eyni zamanda, cari ildə qəbul imtahanları zamanı 500 və daha çox bal toplayan məzunlardan 2090-nı məhz müəllimlik peşəsini seçib ki, bu da olduqca yüksək göstəricidir. Dövlətimizin başçısı da ölkəmizdə müəllim peşəsinə marağın çox böyük dərəcədə artdığını söyləyərək bildirdi ki, aparılan islahatlar, o cümlədən maaşların əhəmiyyətli dərəcədə artırılması, məktəblərin təmiri və digər stimullaşdırıcı addımlar nəticəsində müəllim olmaq istəyənlərin sayı dəfələrlə artıb.

Ümumiyyətlə, 2018-2019-cu tədris ili üzrə qəbul imtahanlarının nəticələrinə görə, əvvəlki illərlə müqayisədə rekord sayda - 41 min abituriyent tələbə adını qazanıb. Təbii ki, bu, dövlətin məqsədyönlü təhsil siyasətinin, təhsil sahəsində aparılan islahatların uğuru kimi çıxış edir. Abituriyetlərin sayına paralel olaraq qəbul imtahanlarında toplanmış ballar da əhəmiyyətli dərəcədə artıb. Maksimum - 700 bal toplayan abituriyentlərin sayı ildən-ilə artmaqdadır ki, bu da gənclərin savadlılıq səviyyəsinin yüksəldiyini təsdiq edən gerçəklikdir.

Ölkəmizdə təhsil sahəsində görülən işlərin uğurlarını, güclü təhsil sisteminin mövcudluğunu ifadə edən digər bir fakt isə Azərbaycanda təhsil alan əcnəbilərin sayının artmasıdır. Dünyada təhsil sahəsində, ali məktəblər arasında çox güclü rəqabətin yaşandığı indiki şəraitdə əcnəbilərin ali təhsil üçün məhz ölkəmizi seçməsi, öz gələcəklərini Azərbaycanın ali təhsil ocaqlarına həvalə etməsi yenə də Azərbaycanın təhsil sisteminin yüksək inkişafını təsdiq edir. Xatırlatmaq istərdim ki, ötən tədris ilində Azərbaycanda 75 xarici ölkədən 5.541 tələbə təhsil alıb. Bu göstərici əvvəlki tədris ili ilə müqayisədə 10 faiz artım deməkdir.

Həmçinin, dərsliklərin yenilənməsi və təkmilləşdirilməsi istiqamətində xeyli iş görülüb və bu proses uğurla həyata keçirilməkdədir. Burada haşiyə çıxıb son dövrlər dərsliklərlə bağlı aparılan ictimai müzakirələri qeyd etmek istərdim. Əlbəttə, dərsliklərin hazırlanması, onların keyfiyyəti tədrisin təşkilində olduqca mühüm əhəmiyyətə malikdir. Azərbaycanda müvafiq dövlət qurumları bu məsələyə çox həssaslıqla yanaşır. Eyni zamanda, dərsliklər kifayət qədər bilikli və tədris prosesində təcrübəsi olan müəlliflər tərəfindən hazırlanır, geniş ekspertizadan keçirildikdən sonra nəşrə buraxılır. Bununla yanaşı, hesab edirəm ki, tanınmış ziyalılarımız, dəyərli alimlər və mütəxəssislər dərsliklər çap olunmazdan əvvəl müvafiq qurumlar tərəfindən keçirilən ictimai müzakirələrə qoşulub fikir və rəylərini versələr, bu, görülən işin daha keyfiyyətli olmasına töfhə verə bilər.

Nəticə etibarilə, sadalananlar bir daha təsdiq edir ki, Azərbaycan təhsili inamla inkişaf edir və bu gün Azərbaycanın təhsil sahəsində deməyə sözü var.

**- Sahibə xanım, Forumda Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə də toxunuldu. Ölkəmizin ərazi bütövlüyü çərçivəsində ədalətli həllinə nail olmaq Azərbaycan diplomatiyasının qarşısında dayanan bir nömrəli vəzifədir. Bu mənada cari ildə münaqişənin həlli ilə bağlı keçirilən görüşlər və atılan addımlar Azərbaycana nə vəd edir?**

- Birmənalı şəkildə qeyd etməliyəm ki, Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində qətiyyətli mövqe nümayiş etdirir. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən prinsipial siyasətin nəticəsidir ki, beynəlxalq ictimaiyyət tərəfindən münaqişənin həlli məsələsi daim diqqət mərkəzində saxlanılır və bu istiqamətdə müvafiq bəyanatlar verilib, mühüm sənədlər qəbul edilib. Cari il ərzində dövlətimizin başçısının səfərləri və keçirdiyi mühüm görüşlərdə də Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həlli prioritetlərdən biri olub. Azərbaycanın Dağlıq Qarabağ münaqişəsinin həlli prosesində konstruktiv mövqe nümayiş etdirməsinə baxmayaraq, Ermənistan Azərbaycanın işğal olunmuş ərazilərində qeyri-qanuni əməllərini və təxribatçı siyasətini davam etdirir. Ermənistan 20 ildən çoxdur ki, beynəlxalq təşkilatlar tərəfindən tərəfindən qəbul olunmuş qətnamələrə əməl etmir, onlara məhəl qoymur. İşğalçı ölkə rəhbərliyi hər vəchlə danışıqlar prosesini pozmağa, status-kvonu mümkün qədər saxlamağa çalışır. Təəssüf ki, işğalçı ölkənin yeni rəhbərliyi də özlərindən əvvəlki kriminal xunta başçılarının səhvlərini təkrarlayır, müxtəlif addımlarla sülh danışıqlarını manipulyasiya edir, imitasiya ilə məşğuldur. Təəssüf doğuran başqa bir məqam isə ondan ibarətdir ki, beynəlxalq təşkilatlar da Ermənistana qarşı heç bir sanksiya tətbiq etmir. Bu halda isə işğalçı dövlət özünü cəzasızlıq mühitində hiss edir və işğal faktını legitimləşdirmək məqsədilə müxtəlif təxribatçı addımlar atır. Bu isə həm münaqişənin həll edilməmiş qalmasına səbəb olur, eyni zamanda, regionda sabitlik və təhlükəsizliyə ciddi təhdidlər yaradır. Ona görə də, Ermənistanın təxribatçı hərəkətlərinə son qoyulmalıdır. Beynəlxalq ictimaiyyət tərəfindən Ermənistanın danışıqlar prosesini pozmasına imkan verilməməlidir, bu ölkənin üzərinə düşən öhdəliklərin yerinə yetirilməsi təmin olunmalıdır. Əks təqdirdə, baş verəcək hadisələrin məsuliyyəti Ermənistan rəhbərliyinin üzərinə düşəcək.

**- Beynəlxalq ictimaiyyətin davranışlarından söz düşmüşkən, bir müddət əvvəl Fransanın bir neçə bələdiyyə başçıları tərəfindən Azərbaycan Respublikasının Ermənistan tərəfindən işğal olunmuş ərazilərinə qanunsuz səfər təşkil olundu və bu səfər çərçivəsində orada mövcud olan qondarma separatçı rejim təmsilçiləri ilə "bəyannamə" imzalandı. Siz bunu necə qiymətləndirirsiniz?**

- Əlbəttə, biz Fransa kimi beynəlxalq münasibətlərdə söz sahibi olan, eyni zamanda, Ermənistan - Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinə vasitəçilik edən ATƏT-in Minsk qrupunun üzvü kimi Fransanın bələdiyyə başçılarının bu addımını qətiyyətlə pisləyirik. Bu, ilk növbədə, beynəlxalq hüququn norma və prinsiplərinin kobud şəkildə pozulması deməkdir. Eyni zamanda, belə bir səfərin reallaşması Azərbaycanın işğal olunmuş ərazilərində yaradılmış terrorçu rejimin təbliğinə və işğalçılıq siyasətinin təşviqinə xidmət edir. Bu səfərin təşkili və Azərbaycanın işğal olunmuş ərazilərində yaradılmış terrorçu rejimlə imzalanan "bəyannamə" Fransanın özünün də qanunvericiliyi ilə ciddi ziddiyyət təşkil edir və və bu ölkənin özünün qəbul etdiyi qanunlara qarşı saymazyana münasibəti ortaya qoyur.

Qeyd olunmalıdır ki, Fransa yerli özünüidarəetmə orqanlarının bu kimi qanunsuz addımları Fransanın da təmsil olunduğu ATƏT-in Minsk qrupunun həmsədrlərinin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin danışıqlar yolu ilə həlli səylərinə xələl yetirir. Çünki işğal və azərbaycanlıların etnik təmizlənməsi əsasında qurulan status-kvonun və Ermənistanın danışıqlardan yayınmaq üçün müraciət etdiyi manipulyasiyaların təşviqinə xidmət edən və təxribat xarakteri daşıyan bu səfər, həmçinin işğaldan əvvəl azərbaycanlıların yaşadığı Qarabağın tarixi mərkəzi Şuşa və Laçın şəhərlərinin hazırkı terrorçu qondarma "yerli hakimiyyətləri" ilə "bəyannamə" imzalaması insanlığa qarşı cinayət olan etnik təmizləmələrin, soyqırımlarının nəticələri ilə razılaşmaq, Ermənistanın işğalçılıq və soyqırımı siyasətinə dəstək vermək anlamına gəlir. Şübhəsiz bu, ilk növbədə, ATƏT-in Minsk qrupunun üzvü kimi Fransanın beynəlxalq öhdəlikləri ilə ziddiyyət təşkil edir. Bu da Fransanın vasitəçi kimi nüfuzuna ciddi zərər vurur, onun vasitəçiliyinə olan etimadı sarsıdır.

Azərbaycan ictimaiyyəti Fransa hökumətindən beynəlxalq hüququn, Fransa qanunvericiliyinin və Azərbaycan qanunlarının kobud şəkildə pozulması ilə müşayiət olunan bu qanunsuz səfərlə bağlı dərhal ölçü götürülməsini və adekvat münasibət göstərilməsini gözləyir.

# Ermənistan rəhbərliyi üçün yeni teorem: ABŞ və Avropanın yaratdığı şok effekti

***Son bir neçə gündə Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı baş verən proseslər ekspertlərin diqqətini çəkib. Daha doğrusu, ABŞ və Avropanın böyük dövlətlərinin rəsmi olaraq ifadə etdikləri bəzi fikirlər Ermənistanda narahatlıqla qarşılanıb. Amerikanın Ermənistandakı səfiri Riçard Mills İrəvanı tərk etməzdən öncə verdiyi müsahibədə erməniləri münaqişənin mahiyyətini anlamamaqda ittiham edib. Onunla, demək olar ki, eyni vaxtda digər ABŞ rəsmisi Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən fikirlər bildirib. Yenə də həmin günlərdə Almaniya hökuməti rəsmi bəyanatında Dağlıq Qarabağı Azərbaycan ərazisi kimi qəbul etdiyini ifadə edib. Bunlarla yanaşı, Fransa Azərbaycanla hərbi əməkdaşlıq edəcək. Ermənistanın bütün iradlarına baxmayaraq, Fransa rəhbərliyi qərarından dönmür. Bütün bunlar nəyi ifadə edir? Cənubi Qafqazda geosiyasi dinamika hansı yeni çalarları kəsb edir? Bu kimi suallar üzərində bir qədər geniş dayanmaq istərdik.***




### Həqiqətin etirafı: erməniləri möhkəm qorxudub

İndi kütləvi informasiya vasitələrində ABŞ-ın Ermənistandakı artıq keçmiş səfiri Riçard Millsin son müsahibəsində ifadə etdiyi fikrin arxasında hansı incəliklərin dayandığının analizi geniş yer tutur. Amerikalı diplomat Ermənistanı tərk etməzdən öncə "EVN Report" nəşrinə müsahibəsində deyib: "Mən buraya ilk dəfə gələndə təəccübləndim. Gördüm ki, rast gəldiyim ermənilərin əksəriyyəti danışıqlar prosesi çərçivəsində işğal olunmuş ərazilərin qaytarılmasının qəti əleyhinədirlər" (bax: Posol SŞA v Armenii: status-kvo ne v polğzu Erevana / "Sputnik", 16 oktyabr 2016).

Erməni siyasi rəhbərliyi də daxil olmaqla bütün dairələr səfirin nə demək istədiyini aydınlaşdırmağa çalışır. Nikol Paşinyan isə qısaca vurğulayıb: "gedən səfirin yadda qalmayacaq sözləridir". Lakin məsələyə lakonik cavab bundan ibarət deyil. Bu, sadəcə, erməni liderin problemdən qaçması əlamətidir. Belə bir vəziyyətin yaranacağını isə Azərbaycan tərəfi dəfələrlə Ermənistan rəhbərliyinə xatırladıb. Onlara deyilir ki, işğal etdiyiniz Azərbaycan torpaqlarını qeyd-şərtsiz tərk etməlisiniz. Münaqişənin həllinin başqa varianti yoxdur!

Əslində, R.Millsin sözlərinin iki aspektdə əhəmiyyəti çoxdur. Birincisi, o, heç də həqiqəti tam ifadə etməyib. Belə ki, daha açıq və konkret deməli idi ki, Ermənistan silahlı qüvvələri işğal etdikləri bütün Azərbaycan torpaqlarından çıxmalıdır. Yalnız bundan sonra münaqişənin həllini başa çatdırmaq olar. Eyni zamanda, rəsmi İrəvanın bununla bağlı hər hansı şərt irəli sürməsi qəbuledilməzdir, çünki o, işğalçıdır! Ədalət naminə deyək ki, məsələnin bu tərəfini R.Mills erməni jurnalistə dolayısı ilə çatdırıb. O, "işğal edilmiş ərazi" ifadəsini bir neçə dəfə işlədib və bu kontekstdə erməni silahlı qüvvələrinin oradan çıxması zərurətindən bəhs edib.

İkincisi, R.Mills bu məsələdə tək deyil. Məsələn, ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisinin yeni təyin olunmuş müavini Corc Kent Bakıdakı ABŞ səfirliyində ölkəyə olan səfərinin yekunlarına dair keçirdiyi brifinqdə vurğulayıb ki, Dağlıq Qarabağ münaqişəsinin həlli Helsinki Yekun Aktı və Madrid prinsipləri əsasında həll edilməlidir. ABŞ Madrid prinsiplərinin yerinə yetirilməsində üzərinə götürdüyü öhdəliklərə ciddi yanaşır (bax: Corc Kent: Azərbaycan regionda təhlükəsizliyin təmin olunmasında mühüm rol oynayan ölkədir / AZƏRTAC, 10 oktyabr 2018).

Ancaq Ermənistan üçün "soyuq duş" bununla bitməyib. Bu günlərdə Avropanın böyük dövlətlərindən olan Almaniyanın hökuməti ona verilən sorğuya cavab verib. Alman hökuməti bildirib ki, "AFR xüsusi olaraq vurğulayır ki, "Almaniya-Ermənistan münasibətləri" anlayışı ilə AFR və Ermənistan Respublikası arasındakı münasibətlər başa düşülməlidir. Almaniya hökuməti Ermənistan silahlı qüvvələrinin nəzarətində yerləşən Dağlıq Qarabağ regionunu və yeddi ətraf rayonu Azərbaycanın bir hissəsi hesab edir. AFR hökuməti qondarma "Dağlıq Qarabağ Respublikası"nı tanımır" (bax: Almaniya hökuməti: Dağlıq Qarabağ Azərbaycan ərazisinin bir hissəsidir / AZƏRTAC, 10 oktyabr 2018).

Bundan başqa, sorğudakı "AFR hökuməti Dağlıq Qarabağın beynəlxalq hüquqi statusunu necə qiymətləndirir?" sualına hökumət dəqiq və konkret cavab verib: "Dağlıq Qarabağ bölgəsi Azərbaycan Respublikasının ərazisinin bir hissəsidir" (bax: əvvəlki mənbəyə).

### Yeni situasiya: geosiyasi savaşın növbəti mərhələsinin incəlikləri

Bunlar çox əhəmiyyətli geosiyasi proseslərin artıq daha da gücləndiyini təsdiq edir. Məsələ belədir ki, ABŞ və Avropanın böyük dövlətlərinin Azərbaycanın ərazi bütövlüyünü dəstəkləmələri uzun müddətdir rəsmi Bakının yeritdiyi səmərəli xarici siyasətin birbaşa nəticəsidir. Və bu baxımdan tamamilə normaldır, proqnozlaşdırılandır. Bu səbəbdəndir ki, ekspertlər Azərbaycan rəhbərliyinin bu informasiyaları təmkinli qarşıladığını xüsusi vurğulayıblar.

Ermənilər narahatdırlar, çünki uduzduqlarını indi daha aydın hiss edirlər. Azərbaycan isə təmkin və ardıcıllıqla münaqişənin tam həll olunacağına qədər irəliləyəcək. Bunun alternativi yoxdur. Xarici ölkələrin rəsmi şəxslərinin verdikləri son bəyanatlar həm də bu aspektdən diqqəti çəkir.

Məsələnin digər tərəfi Ermənistan rəhbərliyinin illərdir qeyri-konstruktiv mövqe tutmasına bağlıdır. İndi Nikol Paşinyanın nə deməsindən asılı olmayaraq, vəziyyət Ermənistanın əleyhinə sürətlə dəyişməkdə davam edəcək. Çünki belə görünür ki, erməni rəhbərliyi hələ də məsuliyyətini tam anlamır. O, bir sıra məqamlarda məntiqsiz və qeyri-real fikirlər irəli sürür. Onlardan biri də Dağlıq Qarabağdakı separatçı-terrorçuların danışıqlarda iştirak edib-etməməsi ilə əlaqəlidir.

Azərbaycan Prezidenti oktyabr ayındakı çıxışlarının birində təkrar vurğulayıb ki, danışıqlar yalnız Ermənistanla Azərbaycan arasında olacaq. "DQR" adlanan qondarma qurumun bu prosesdə iştirakı mümkün deyildir. Əslində, ermənilər daha çox narahat edən Azərbaycan Prezidentinin bu sözləri olub. Çünki N.Paşinyan vəziyyətin Ermənistanın xeyrinə dəyişdiyi ilə bağlı sərsəm fikir səsləndirmişdi. İndi isə aydın olur ki, rəsmi Bakının mövqeyində heç bir dəyişiklik yoxdur və olacağı da gözlənilmir. Bu mövqe isə sadə, aydın, ədalətli və beynəlxalq hüququn normalarına tam uyğundur: Ermənistan işğal etdiyi Azərbaycan ərazilərini qeyd-şərtsiz tərk etməlidir və ölkənin dünya tərəfindən tanınmış ərazi bütövlüyü bərpa olunmalıdır!

ABŞ və Avropa ölkələrinin niyə məhz indi bu məsələni qabartması isə artıq ayrıca izah tələb edən və bizcə, geosiyasi kontekstə malik məqamdır. Cənubi Qafqazda böyük güclərin geosiyasi mübarizəsi yeni səviyyəyə yüksəlib. ABŞ, Avropa İttifaqı, Rusiya, Çin, İran və Türkiyə nüfuz uğrunda ciddi mübarizə aparırlar. Bu, daha çox ABŞ-Rusiya-İran "üçbucağı"ndakı gərginliklərlə müşayiət olunur. Amerika Tehrana qarşı sanksiyaları daha da sərtləşdirir. Moskva isə onlardan yan keçərək İrana dəstək verməyə çalışır.

Bu bağlılıqda Ermənistan, Azərbaycan və Gürcüstan şirkətlərinin İranla əməkdaşlığı məsələsini də Vaşinqton qaldırmağa çalışır. Ən həssas punkt bu məsələdə Ermənistandır. Çünki o, tamamilə Rusiyadan asılıdır və həm də Moskva İran-Ermənistan əlaqələrinin müəyyən həddi keçməməsində maraqlıdır. ABŞ-ın sanksiya siyasəti fonunda Kreml arzuladı ki, Ermənistan İranla daha sıx əlaqələr qursun.

Bu iki məqam Ermənistanı geosiyasi və siyasi olaraq əzir. Bir sıra erməni ekspertləri N.Paşinyanın iki supergüc arasında manevr etməyə çalışdığından bəhs edirlər. Onlar yazırlar ki, N.Paşinyan hər iki istiqamətdə "qırmızı xətti" keçməyə məhkumdur (bax: məs., SŞA-RF: kuda poneset Paşinəna ədernaə burə / Lragir.am, 22 oktyabr 2018). Reallıqda "inqilab" rəhbəri bu cəsarəti edə bilməz. Çünki Ermənistanın "qırmızı xətləri"ni özü deyil, Moskva və Vaşinqton müəyyənləşdirir. N.Paşinyanın isə onları keçməyə sadəcə nə ixtiyarı var, nə də ki, imkanları. Bu səbəbdən məsələnin həmin tərəfini bir kənara qoyuruq. Əsas odur ki, ermənilər də etiraf edirlər: Cənubi Qafqaz uğrunda böyük güclərin savaşı genişlənib. Bu mərhələdə Ermənistan çox pis vəziyyətə düşür və ona görə də N.Paşinyan ora-bura vurnuxur.

Deyilənlərdən belə nəticə çıxara bilərik ki, havadarları rəsmi İrəvanı yeni imtahan qarşısına çıxarırlar. Onlar Azərbaycanın real imkanlarını artıq inkar edə bilmirlər. Bu səbəbdən həqiqəti addım-addım etiraf edirlər. Ermənistan rəhbərlərini və erməni cəmiyyətini də məhz buna hazırlamağa çalışırlar. Bu isə məntiqidir, çünki ermənilər şıltaq edənlər onu haqq yoluna gətirməlidirlər. Başqa yolları qalmayıb.

***Newtimes.az***

# Vüqar Rəhimzadə: “Azərbaycanın tolerantlıq, multikulturalizm təcrübəsi dünyaya nümunədir”

“Azərbaycan iqtisadi, siyasi, humanitar mərkəzə çevrilib. Bu reallığı da qeyd etməliyik ki, əvvəllər həqiqətlərimizi dünya ictimaiyyətinə çatdırmaq üçün bu və ya digər ölkələrə səfər etməyə ehtiyac yaranırdısa, bu gün hər həftə, hər ay Azərbaycan beynəlxalq əhəmiyyətli tədbirlərə ev sahibliyi etməklə bu istəyini gerçəkləşdirir. Dövlətimizin xarici siyasətinin çevikliyi və açıqlığı istər ikitərəfli, istərsə də beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın inkişafına və yeni istiqamətlər üzrə davam etdirilməsinə yol açır. Ümumilikdə bu uğurlarımız düşünülmüş və məqsədyönlü siyasətimizdən, eyni zamanda, Azərbaycanın yerləşdiyi coğrafi məkandan və malik olduğu təbii resurslardan səmərəli istifadəsindən qaynaqlanır”. Bu fikirləri YAP Siyasi Şurasının üzvü, “İki sahil” qəzetinin baş redaktoru Vüqar Rəhimzadə ölkəmizin ev sahibliyi etdiyi VI Beynəlxalq Humanitar Forumun yekunları ilə bağlı SİA-ya açıqlamasında bildirib.

V.Rəhimzadə qeyd edib ki, Azərbaycan müasir dünyanın bütün çağırışlarını yüksək səviyyədə cavablandırır, qarşıya qoyulan məqsədlərə çatmaq üçün birgə səylərin, təcrübə mübadiləsinin zəruriliyini əsaslandırır. Azərbaycanın tolerantlıq, multikulturalizm təcrübəsi dünyaya nümunədir, ölkəmiz daim İslam həmrəyliyinə, multukultural cəmiyyətlərin formalaşmasına davamlı töhfələr verir.

YAP Siyasi Şurasının üzvü bildirib ki, dövlətimizin başçısı cənab İlham Əliyevin Forumdakı nitqində də dünyaya önəmli mesajlar öz əksini tapıb. Belə ki, Azərbaycanın humanitar fəlakətlə üzləşdiyini vurğulayan cənab İlham Əliyev işğalçı Ermənistanın beynəlxalq qurumların qəbul etdiyi qərar və qətnamələrə məhəl qoymadığını, beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozduğunu tədbir iştirakçılarının diqqətinə çatıraraq, bir daha dövlətimizin dəyişməz mövqeyini bəyan etmişdir: “Azərbaycan heç vaxt işğalla barışmayacaq, ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir. Bunu tarixi ədalət və beynəlxalq hüquq tələb edir”.

Vüqar Rəhimzadə Forum iştirakçılarının say tərkibində nəzərə çarpan artımı Azərbaycanın beynəlxalq münasibətlər sistemində yeri və rolunun, eyni zamanda, müxtəlif mədəniyyətləri və dinləri bir araya gətirən belə mötəbər tədbirlərə marağın göstərici kimi qeyd edib: “Hər bir tədbir gündəmə gətirilən məsələnin, mövzunun müzakirəsi baxımından əhəmiyyətlidir. VI Beynəlxalq Humanitar Forumun mövzusu da bu günümüzün çağırışlarından birini özündə əks etdirir- “Yeni dünya və yeni insan formalaşdıraq: yaradıcılıq və insan inkişafı””.



“İki sahil” qəzetinin Baş redaktoru onu da bildirib ki, dünyada münaqişələrin, toqquşmaların baş verdiyi, gərginliklərin artdığı bir zamanda bəşəriyyəti narahat edən məsələlərin müzakirəsi əhəmiyyətlidir. Dünyanın bugünkü mənzərəsi belədir: beynəlxaq hüquq problemi yaşanır, maraqlar ədaləti üstələyir, dünya ikili yanaşmalardan xilas ola bilmir. Bu bəyanat dövlətimizin başçısı İlham Əliyev tərəfindən bütün tədbirlərdə bəyan edilir ki, beynəlxalq hüquq normaları bütün dövlətlərə eyni şəkildə tətbiq olunmalı, vahid mexanizm müəyyənləşdirilməlidir. Bu, dünyada ədalət meyarını unutmamağa bir çağırışdır. Tolerantlığı, multikulturalizmi dövlət siyasətinin əsası kimi qəbul edib, sivil, hüquqi, demokratik dövlət quruculuğu yolunda inamlı addımlar atan, bütün azadlıqların ölkəmizdə qorunmasına səy göstərən, ən əsası yenilikçi ölkə kimi tanınan Azərbaycanın belə tədbirlərə ev sahibliyi etməsi əsaslıdır, bugünümüzün uğurlarının təsdiqidir. Dünyanı narahat edən probelmlərin ölkəmizin ev sahibliyi etdiyi tədbirlərdə müzakirə olunması, ümumi yanaşmanın ortaya qoyulması Azərbaycanın ölkələr, xalqlar arasında dostluq korpüsü roluna işıq salmaqla yanaşı, eyni zamanda, hər bir məsələnin həllində ədalətli mövqeyə, beynəlxalq hüququn norma və prinsiplərinə önəm verməsinə əsaslanır.

V.Rəhimzadə bildirib ki, son illərdə dünyada, o cümlədən Şərq ölkələrində baş verən hadisələr də təsdiqlədi ki, multikulturalizmin alternativi yalnız ksenofobiya, islamofobiya, antisemitizm, irqçilik və ayrıseçkilik ola bilər. İslam aləminin ayrılmaz parçası olan, islami dəyərlərə sadiqliyini əməli işi ilə sübut edən Azərbaycan islamofobiyaya qarşı mübarizədə öz sözünü deyən ölkələrdəndir.

“VI Beynəlxalq Humanitar Forum bir daha təsdiqlədi ki, Azərbaycan mühüm məsələlərin müzakirə olunduğu önəmli məkandır”, deyən V.Rəhimzadə onu da diqqətə çatdırıb ki, işini uğurla başa çatdıran Forumda müzakirə olunan məsələlər, aparılan diskusiyalar birgə əməkdaşlığa, qarşıya qoyulan məqsədlərə böyük töhfə olacaq.

# Aslan Aslanov: “Ənənəvi media yanlış məlumatlandırma siyasətinə qarşı mübarizəni gücləndirməlidir”

***Bakı Beynəlxalq Humanitar Forumu aktual məsələlərin, bəşəriyyəti düşündürən problemlərin müzakirə olunduğu qlobal platformadır. Azərbaycan və Rusiya prezidentlərinin təşəbbüsü olan Forum dünyanın görkəmli alimlərinin, tanınmış siyasətçilərin, ictimai xadimlərin, ekspertlərin, iqtisadçıların, jurnalistlərin bir araya gəlib dünyanı narahat edən müxtəlif mövzuları geniş müzakirə etməsi ideyasından qaynaqlanıb və ötən müddətdə özünü tam doğruldub.***

AZƏRTAC-ın İdarə Heyətinin sədri, Dünya Xəbər Agentlikləri Konqresinin və OANA-nın prezidenti Aslan Aslanov bu fikirləri jurnalistlərə müsahibəsində deyib. Qeyd edib ki, Forumun əhatə dairəsi davamlı olaraq genişlənir və ona maraq getdikcə artır. Azərbaycan sivilizasiyalararası dialoqun mərkəzinə çevrilib və dünya artıq bunu qəbul edir.




“Biz fəxrlə deyə bilərik ki, məhz Azərbaycan Prezidenti İlham Əliyevin uğurlu siyasəti nəticəsində Bakı Beynəlxalq Humanitar Forumu bu gün bütün qitələrdə, bütün ölkələrdə böyük rəğbətlə qarşılanır. Bu Foruma çox böyük maraq var. Bilirsiniz ki, Forum çərçivəsində müxtəlif mövzularda plenar sessiyalar, eləcə də işçi sessiyalar keçirilir. Bizim bu gün topladığımız işçi sessiyada müasir jurnalistikanı və bütövlükdə dünyamızı narahat edən məsələ - feyk xəbərlərin, yanlış məlumatlandırma siyasətinin dünyada sabitliyə yaratdığı təhdid mövzusu müzakirə olunur”, - deyə İdarə Heyətinin sədri bildirib.

Jurnalistikanın ciddi dəyişikliklərə uğradığını vurğulayan Aslan Aslanov deyib ki, ənənəvi media ilə internet jurnalistikası arasındakı rəqabət istər-istəməz yeni çağırışlar, problemlər və təhdidlər ortaya çıxarır. Bu təhdidlərdən biri də sosial şəbəkələrdən yararlanan bir çox qüvvələrin feyk xəbərlərdən, yanlış xəbərlərdən məharətlə istifadə edərək müxtəlif ölkələrə, xalqlara qarşı informasiya müharibəsi aparması, yalan məlumatlar yaymasıdır. Ənənəvi medianın yanlış məlumatlandırma siyasətinə qarşı mübarizəni gücləndirməsinə bu gün daha çox ehtiyac duyulur.

Məqsədli şəkildə yayılan bu dezinformasiyalardan bir çox ölkələrin, xalqların əziyyət çəkdiyini diqqətə çatdıran İdarə Heyətinin sədri deyib: “Azərbaycan da yalan xəbərlərdən çox böyük ziyan çəkən ölkələrdən biridir. Məsələn, Ermənistan silahlı qüvvələri Azərbaycan torpaqlarının 20 faizini işğal edib. Bizim maddi-mədəniyyət, dini-mənəvi abidələrimizi, qəbiristanlıqlarımızı, yurd yerlərimizi viran qoyub. Lakin onlar Azərbaycan haqqında həyasızcasına yalan, iftira dolu uydurma xəbərlər yaymaqla, dünya ictimaiyyətini çaşdırmaq istəyirlər. Bakı Forumu və bu kimi digər beynəlxalq tədbirlər bədxah qüvvələrin iç üzünü açıb göstərmək baxımından da çox əhəmiyyətlidir.”

## RF Dumasının sədr müavini: VI Bakı Beynəxalq Humanitar Forumunda müzakirə olunan aktual problemlər perspektivdə öz həllini tapır



VI Bakı Beynəxalq Humanitar Forumu Rusiya və Azərbaycan prezidentlərinin himayəsi altında keçən və beynəlxalq səviyyədə tanınan çox ciddi dialoq platformasıdır.

Bunu Trend-ə Rusiya Dövlət Dumasının sədr müavini Sergey Neverov deyib.

O qeyd edib ki, Foruma maraq getdikcə artır, çünki bu tədbirdə müzakirə olunan aktual problemlər perspektivdə öz həllini tapır: “Bu beynəlxalq dialoq platformasında heç bir ölkənin müstəqil şəkildə həll edə bilməyəcəyi qlobal problemlər müzakirə olunur”.

S.Neverov eyni zamanda dinamik inkişaf edən və möhkəmlənən Rusiya-Azərbaycan münasibətlərinin yüksək səviyyəsini qeyd edib. Qeyd edək ki, oktyabrın 25-də Bakıda VI Beynəlxalq Humanitar Forum işə başlayıb. “Yeni dünya və yeni insan formalaşdıraq: kreativlik və insan inkişafı” mövzusunda keçirilən budəfəki Foruma 86 ölkə və 24 beynəlxalq təşkilatdan 581 nümayəndə qatılıb.

## Vyetnamlı alim: VI Bakı Beynəlxalq Humanitar Forumu insanları sülh və tərəqqi naminə birləşdirir



Mən Azərbaycan Dövlət Universitetinin məzunuyam. İndi onun adı dəyişdirilərək Bakı Dövlət Universiteti adlandırılıb. Riyaziyyat fakültəsində oxumuşam. Təhsil aldığım illərlə bağlı çox yaxşı xatirələrim qalıb. Vaxt sürətlə ötüb keçir. Ötən 40 il ərzində çox dəyişikliklər baş verib. İqtisadi tərəqqi, ölkə infrastrukturunun inkişafı, Bakının müasir arxitekturası güclü təəssürat oyadır. Azərbaycanda dostlarımın sayı olduqca çoxdur.

Bu sözləri AZƏRTAC-a müsahibəsində VI Bakı Beynəlxalq Humanitar Forumunun vyetnamlı iştirakçısı, professor Thai Ba Can söyləyib. Forumda ilk dəfə iştirak etdiyini qeyd edən qonaq deyib: “Bakı Beynəlxalq Humanitar Forumu dünyanın müxtəlif ölkələrindən olan insanları bir araya gətirən çox irimiqyaslı tədbirdir. Burada təhsil və dindən tutmuş texnoloji yeniliklərə qədər müxtəlif mövzular müzakirə edilir”. Professor T.B.Can vurğulayıb ki, forum dünyanın hər yerindən çoxlu alim və siyasətçi cəlb edir, insanları sülh və tərəqqi naminə birləşdirir.

səs

www.sesqazeti.az

facebook Ses Media Holding

27 oktyabr 2018-ci il

# Con Bolton açıq mövqeni ən yüksək şəkildə ortaya qoydu

*"Əgər Ermənistan xarici təzyiqlərə məruz qalmaq istəmirsə, Dağlıq Qarabağ münaqişəsinin qısa müddətdə həllinə nail olmalıdır"*

***Azərbaycandan sonra Ermənistana səfər edən ABŞ rəsmisi Con Bolton Yerevanda bəyan edib ki, əgər Ermənistan xarici təzyiqlərə məruz qalmaq istəmirsə, Dağlıq Qarabağ münaqişəsinin qısa müddətdə həllinə nail olmalıdır. Söhbət etdiyimiz müsahiblərimiz Boltonun bəyanatını dolayısı ilə ABŞ-ın Ermənistana zərbəsi, Ermənistanı işğalçı dövlət olaraq tanıması kimi dəyərləndirdilər.***



**Millət vəkili Elşən Musayev: "İndi Ermənistanda hər kəs şokdadır "**

- Con Boltonun mövqeyi təqdir olunandır. Hər halda, ABŞ-ın yüksək çinli məmurunun Azərbaycan haqda dedikləri, dövlətimizin maraqları prizmasından çıxış etməsi və bizlərə dəstək olması sevindiricidir. Nəhayət ki, fövqəldövlətlər öz neytral mövqelərindən geri çəkilirlər, haqqın tərəfini tuturlar və artıq kənarda deyil, Ermənistanın paytaxtında ermənilərin özlərinə, üzlərinə deyirlər ki, siz səhvsiniz, qanunsuz yolla zəbt elədiyiniz torpaqları geri qaytarmalısınız.

Tam səmimi deyirəm, məncə, indi Ermənistanda hər kəs şokdadır. Həm hakimiyyət, həm də millət olaraq. Çünki Ermənistanın bu miqyasda tənqid olunması yeni presedentlər yaradacaq. Bilirsiniz, ABŞ-ın mövqeyi həm də bir çox dövlətlər üçün işıqdır. Həmin dövlətlər bəzən kimin haqlı olduğunu dəqiq bilsələr də, Amerikanın açıq mövqeyini gözləyirlər ki, açıq xətt yürütsünlər. Con Bolton isə, həmin açıq mövqeni ən yüksək şəkildə ortaya qoydu. Dünya kimin kim olduğunu bilir. Hamı artıq dostunu və düşmənini açıq formada seçir. Azərbaycanın uğurları göz qabağındadır. Azərbaycan etibarlı tərəfdaşdır. Azərbaycanı günbəgün, saatbasaat daha yeni inkişafa, rifaha və xoş gələcəyə aparan Prezident var. Ermənistan isə siyasi böhranın tam içində, xaosun məngənəsindədir və bu uğursuzluqlar onların həm də ədalətsiz olması, bütün dünya çaplı iqtisadi layihələrdən kənarda qalması ilə bağlıdır. Amerika rəsmisi də Yerevanda onlara bu həqiqəti başa salıb ki, düzgün siyasət yürütmədiyiniz, Qarabağı əsl sahibinə qaytarmadığınız surətdə sizin inkişafınızdan söhbət belə gedə bilməz.



**Politoloq Elxan Şahinoğlu: "Təsir olmadığına görə, Ermənistan işğala da son qoymur "**

- Ermənistana səfər edən ABŞ rəsmisi Con Bolton Yerevanda bəyan edərək deməsi ki, "Əgər Ermənistan xarici təzyiqlərə məruz qalmaq istəmirsə, Dağlıq Qarabağ münaqişəsinin qısa müddətdə həllinə nail olmalıdır", fikri, əslində, Ermənistana ciddi mesajdır. Çünki bundan əvvəl də Amerikanın ATƏT-dəki həmsədri demişdir ki, Dağlıq Qarabağ ətrafındakı rayonlar boşaldılmalıdır. Üstəgəl, Amerikanın Ermənistandakı səfiri eyni sözləri təkrarlamışdı. Demişdi ki, Qarabağ ətrafındakı rayonlar boşaldılmadan, Ermənistan nə sülhə nail olacaq, nə də ki, inkişafa. Con Bolton da Ermənistan hakimiyyətinə və cəmiyyətinə bir mesaj kimi göndərib. Bu, bir həqiqətdir. Yəni nə qədər ki, işğal faktı var, Ermənistanı sülh də, inkişaf da gözləmir. Bu da cəbhə bölgəsində hər zaman vəziyyəti gərginləşdirə bilər. Təəssüf ki, amerikalı diplomatın dediklərini digər iki həmsədr ölkənin diplomatları Fransa və Rusiya demirlər. Elə bu səbəbdən də, Dağlıq Qarabağ münaqişəsinin həlli uzanır. Amerikalı diplomatlar konkret mövqelərini açıqlasalar da təəssüf ki, Ermənistan hakimiyyətinə müəyyən təsirlər yoxdur. Yəni təsir olmadığına görə, Ermənistan hakimiyyəti özünü rahat hiss edir və işğala da son qoymur.



**"Paralel" qəzetinin baş redaktoru Tapdıq Abbas: "ABŞ-ın açıq mövqeyi Ermənistanı işğalçı dövlət kimi tanıması deməkdir"**

- Azərbaycandan sonra Ermənistana səfər edən ABŞ prezidentinin təhlükəsizlik məsələləri üzrə müşaviri Con Boltonun Yerevanda "əgər Ermənistan xarici təzyiqlərə məruz qalmaq istəmirsə, Dağlıq Qarabağ münaqişəsinin qısa müddətdə həllinə nail olmalıdır"- bəyanatını, heç şübhəsiz, birbaşa ABŞ-ın Ermənistana həm zərbəsi, həm Ermənistanı işğalçı dövlət kimi tanıması deməkdir. Bu mövqe, həm də ölkəmizin Ermənistana qarşı irəli sürdüyü bütün iddiaların ABŞ tərəfindən tam haqlı olmasını təsdiq edən mövqe sayıla bilər. Yəqin ki, ABŞ-ın açıq mövqeyi digər dövlətləri də hərəkətə gətirəcək. Bu isə, işğalçı dövlətə təsirsiz ötüşməyəcək. Ermənistana sanksiyaların tətbiq edilməsi gündəmə gətirilə bilər.



**"Palitra" qəzetinin baş redaktoru Namiq Əliyev: "ABŞ Ermənistanın işğalçı olduğunu yaxşı bilir "**

- ABŞ rəsmisi Con Bolton da ermənilərə açıq mətnlə bildirdi ki, onlar üçün yeganə doğru yol Dağlıq Qarabağ münaqişəsini tezliklə həll etmələridir. Əvvəla, xüsusi vurğulamaq lazımdır ki, ABŞ rəsmiləri təkcə Cənubi Qafqazda deyil, bütövlükdə, regionda Azərbaycanın iqtisadi və siyasi çəkisinin səviyyəsini, və bu parametrlərə görə, Ermənistandan qat-qat üstün olduğunu yaxşı bilirlər. Con Bolton Prezident İlham Əliyevlə görüşündə "Azərbaycanın beynəlxalq enerji məsələlərində aparıcı rolunu ABŞ hökumətinin nəzərə aldığını" bildirdi. Konkret olaraq, Dağlıq Qarabağ münaqişəsi məsələsində isə problemin həllinin çox çətin olduğunu Con Bolton Yerevandakı çıxışında etiraf etdi. Onun fikrincə, hazırkı mürəkkəb geosiyasi situasiyada Dağlıq Qarabağ məsələsinin tərəflər üçün məqbul variantda həllinin tapılması vacibdir və belə olduqda, Ermənistanın həm Azərbaycan, həm də Türkiyə ilə sərhədləri açıla bilər. Hazırkı situasiya deyəndə, Con Bolton, birinci növbədə, İrana qarşı sanksiyaların sərtləşdirilməsini nəzərdə tuturdu. Diqqət edin, Ermənistanın Azərbaycan və Türkiyə ilə sərhədləri bağlıdır, Gürcüstan vasitəsilə Rusiyaya çıxışı da etibarlı və daimi deyil. Qarşıdan qış gəlir və tez-tez Lars keçidində ləngimələr baş verəcək. Ümumiyyətlə, ermənilər daimi olaraq, bu keçiddə problemlərlə qarşılaşırlar. İrana qarşı noyabrın 4-dən sanksiyaların yeni mərhələsi işə düşdükdən sonra Ermənistanın bu ölkə ilə də iqtisadi əlaqələrində ciddi problemlərin yaranacağı şübhəsizdir. ABŞ Ermənistana görə özünün qlobal siyasətində dəyişiklik etməyəcək. Beləliklə, elə bir situasiya yaranıb ki, Ermənistan işğalçı siyasətinin girovuna çevrilib. Buna görə də, Con Bolton ermənilərə açıq mətnlə bildirdi ki, "xarici təzyiqləri azaltmaq üçün yeganə doğru yol Dağlıq Qarabağ münaqişəsinin həllinə nail olmaqdır". Hazırkı şəraitdə Ermənistan Dağlıq Qarabağ probleminə görə, Azərbaycan və Türkiyənin, qeyri-müəyyən xarici siyasətinə görə isə, Rusiyanın sərt təzyiqləri altındadır. Ermənistanın, ən azından yaxın vaxtlarda, danışıqlar masası arxasına qayıdacağı ilə bağlı bəyanatlar səsləndirməsi təəccüblü olmayacaq. Ermənistanın işğalçı olduğunu ABŞ hakimiyyət dairələri də yaxşı bilir. Odur ki, Con Boltonun fikirlərindəki əsas məqsəd Ermənistana real situsuyanı başa salmaq olub. Real vəziyyət də, tələb edir ki, Ermənistan işğalçı siyasətindən əl çəksin, əks halda, onu daha ağır gələcək gözləyir.

**GÜLYANƏ**



# "Bolton Azərbaycanda olarkən çox önəmli mesajlar verdi"

"ABŞ Prezidentinin Milli təhlükəsizlik məsələləri üzrə müşaviri Con Boltonun Bakıya səfərindən öncə mən ABŞ-ın Cənubi Qafqaz siyasətində kifayət qədər ciddi dəyişikliklərin baş verdiyini və bunun Boltonun səfərində də özünü büruzə verəcəyini mediaya açıqlamışdım. Təxminlərim məni yanıltmadı". Bunu SİA-ya açıqlamasında siyasi şərhçi Elçin Mirzəbəyli deyib.

Onun sözlərinə görə, Con Bolton Azərbaycanda olarkən çox önəmli mesajlar verdi: "Bu mesajlar ilk növbədə Azərbaycanın ərazi bütövlüyü ilə bağlı idi, digər tərəfdən Azərbaycanın müstəqil siyasət yürütməsinə verilən önəmlə əlaqədar idi. Başqa bir aspekt isə ABŞ-ın məhz müstəqil siyasət yürüdən Azərbaycanın maraqlarını nəzərə alacağı ilə bağlı ölkəmizin regiondakı proseslərdən ziyan görməməsi üçün müvafiq addımlar atacağını söyləmişdi. Bu mənada hesab edirəm ki, Azərbaycanın dövlət, milli maraqlarının ABŞ tərəfindən qəbul edilməsi ilk növbədə ölkəmizin və dövlət başçımızın böyük nüfuza malik olmasından xəbər verir. Boltonun Azərbaycana xüsusi önəm verdiyi onun sonrakı müsahibələrində hətta Ermənistandakı açıqlamalarında da özünü büruzə verdi.

Əgər diqqət yetirsəniz o Azərbaycanın region dövlətləri ilə münasibətlərə çox böyük anlayışla yanaşdığını və bunun tarixi ilə digər amilləri olduğunu vurğuladı. Amma Ermənistanda xüsusilə də İranla münasibətlərində Ermənistana sərt mesajlarını çatdırdı. Bu baxımdan açıq şəkildə görünür ki, Azərbaycan öz münasibətlərində manipulyasiya etmədiyi üçün ilk növbədə milli maraqlarını nəzərə aldığı üçün və milli maraqlardan çıxış etdiyi üçün, digər tərəfdən regional əməkdaşlıq platformasında Azərbaycan məhz yenə də özünün bu istiqamətdə olan milli maraqlarını önə çəkdiyi üçün və iqtisadi faydalılıq baxımından əməkdaşlığa can atdığı üçün bu ABŞ tərəfindən anlayışla qarşılanır. Lakin Ermənistan qütblərarası manipulyasiya edib. İşğalçı ölkə gah qərbə, gah da şimala doğru yuvarlanmaqla tərəfləri az qala bir-biri ilə şantaj etməyə çalışır. Bu baxımdan da bu təbii ki, ABŞ tərəfindən öz qiymətini tapmalı idi. Boltonun açıqlamalarında da biz bu yanaşmanın detallarını gördük. Eyni zamanda çox önəmli məqam ondan ibarət idi ki, Azərbaycanda verilən mesajlar Azərbaycana münasibətdə eyni ilə Ermənistanda da səsləndirildi və ölkəmizin önəmi xüsusi olaraq vurğulandı. Qənatimcə bu Ermənistan ciddi bir mesajdır. Şübhəsiz ki, ABŞ Prezidentinin Milli təhlükəsizlik məsələləri üzrə müşaviri Con Bolton ABŞ-ın rəsmi mövqeyini ifadə edir".

# Ermənilər Con Boltonun bəyanatlarından təşvişə düşüblər

## *İşğalçı ölkənin deputatları amerikalı rəsminin hər bəyanatına "bəhanə" tapmağa cəhd göstərirlər*



***ABŞ prezidentinin Milli Təhlükəsizlik Məsələləri üzrə müşaviri Con Boltonun Azərbaycana səfəri çərçivəsində irəli sürdüyü mühüm bəyanat və fikirləri Ermənistanda ciddi təşvişə səbəb olub. Bütövlükdə, Boltonun istər Bakıda, istərsə də tvitter hesabında Azərbaycan Prezidenti İlham Əliyevlə görüşü, ölkəmizlə bağlı rəylərində yalnız müsbət cəhətdən çıxışlar etməsi erməni tərəfini ciddi şəkildə düşünməyə vadar edib. Amerikalı rəsminin Dağlıq Qarabağ məsələsində sərgilədiyi ədalətli mövqe də erməni siyasilərinin narahatlığına səbəb olub. Hətta onun yalnız Azərbaycanla deyil, digər məsələlərlə bağlı bölüşdüyü fikirləri də, necə deyərlər, ermənilər tərəfindən "atəşə" tutulmaqdadır.***

### Ermənilərin Con Boltona qarşı hücuma keçmələrinin arxasında onun Azərbaycana qarşı yüksək mövqe sərgiləməsi reallığı dayanır

Buna misal kimi, Ermənistan parlamentində çoxluq təşkil edən Respublika Partiyasının fraksiya rəhbəri Vaqram Baqdasaryan keçirdiyi brifinq əsnasında Con Boltonun ABŞ silahlarının Rusiya silahlarından daha yaxşı olması barədə fikirlərinin "doğru" olmadığını bildirib. Düzdür, sonradan öz fikirlərinə düzəlişlər edən erməni deputat, buna baxmayaraq, amerikalı rəsminin silahlarla bağlı münasibət bildirməsini belə "qiymətləndirib". SİTAT: "Beynəlxalq Konvensiyalar çərçivəsində münaqişə tərəflərinə silah satmaq onun daha da qızışmasına səbəb olur. Kimin silahının daha yaxşı olmasını demək doğru fikir deyil. Biz, müharibəyə deyil, münaqişənin sülh yolu ilə həllinə gedirik".

Göründüyü kimi, ermənilər hazırda bütün istiqamətlərdə ABŞ rəsmisinə qarşı hücuma keçiblər və əlbəttə ki, bunun arxasında Azərbaycana olan yüksək dəyər faktoru dayanmaqdadır. Yəni belə qənaətə də gəlmək olar ki, Respublika fraksiyasının rəhbəri Baqdasaryanın silahla bağlı "iddiaları", sadəcə, Boltona qarşı əks-fikir söyləmək üçün bəhanədir. Çünki bu günə qədər elə Baqdasaryanın təmsil olunduğu Respublika Partiyasının rəhbərliyi, xüsusilə, Nikol Paşinyan tərəfindən devrilmiş Serj Sarkisyan rejimi dəfələrlə Rusiyadan silahlar alaraq, kredit müqavilələri imzalayıb. Bu isə, onu göstərir ki, Ermənistan ümumiyyətlə, bütün hakimiyyətlər dövründə işğalçılıq siyasəti cinahından çıxış edib. Ona görə də, Baqdasaryanın fikirlərini ciddi kimi hesab etmək doğru deyil.

### Con Bolton Ermənistanın buxovlandığını bildirib və erməni deputatı bu gerçəklikdən "qəzəblənib"

Yeri gəlmişkən, C.Boltonun "Ermənistan tarixi məhduduyyətlərlə buxovlanmamalıdır" fikirlərinə də qarşı çıxan erməni deputat, əslində, daxilindəki fikirlərini açığa çıxarmış olub. O, buna cavab olaraq, bir daha ermənilərin işğalçılıq siyasəti üzərində fikir yürütdüklərini sübuta yetirib. O, Ermənistanın guya tarixi məhdudiyyətlə buxovunda olmadığını deyərək, "milli dəyərlərindən" dəm vurub və növbəti siyasi həyasızlığını sərgiləyərək, Qarabağın "onlara məxsus" olduğunu bildirib.

Beləliklə, fakt budur ki, Con Boltonun münaqişənin həlli ilə bağlı Ermənistana verdiyi tövsiyələri və bildirdiyi iradları bu kimi erməni siyasətçilərini yerindən oynadıb. Görünür, bu səbəbdən də, amerikalı rəsminin, demək olar ki, hər cümləsinə, hər bəyanatına qarşı çıxışlar edirlər. Lakin bu, həm də belə qənaətə gəlməyə əsas verir ki, artıq Ermənistana nə Qərb, nə də Rusiya dayaq dayanmaq fikrində deyil. Çünki Ermənistan bütün siyasi rıçaqlarını itirib və bundan sonra işğalçı ölkədə dəfələrlə hakimiyyət dəyişiklləri olsa belə, bu kimi "inqilab" prosedurları onların istədikləri nəticələri verməyəcək. Baqdasaryan və onun kimi digərlərinə isə boş-boş əks-bəyanatlar verib, özlərini aldatmaq qalacaq. O zamana qədər ki, torpaqlarımız işğaldan azad ediləcək. Onlar da yaxşı anlayırlar ki, artıq saatın əqrəbləri Azərbaycana tərəf işləyir və beynəlxalq aləm, o cümlədən, ABŞ bu məsələdəki mövqeyini, bilavasitə Con Bolton vasitəsi ilə təsdiqlədi.

***Rövşən NURƏDDİNOĞLU***

# Qırğızıstan Prezidentinin müşaviri: Bakı humanitar məsələlərin müzakirə meydanına çevrilir

***Mən Bakı Beynəlxalq Humanitar Forumunda bir neçə dəfə iştirak etmişəm. Müasir dünyada bu Forumun böyük əhəmiyyəti var. Sevindirici haldır ki, humanitar məsələlər məhz Azərbaycanda qaldırılır. Bakı humanitar məsələlərin müzakirə meydanına çevrilir.***



Bu sözləri AZƏRTAC-a müsahibəsində VI Bakı Beynəlxalq Humanitar Forumunun iştirakçısı, Qırğızıstan Prezidentinin müşaviri Sultanbay Rayev söyləyib. Aktual məsələlərin müzakirəsi baxımından Forumu yüksək qiymətləndirən qonaq vurğulayıb ki, bu tədbir Forumun bütün iştirakçıları üçün böyük əhəmiyyət kəsb edir. S.Rayev deyib: "Zəmanəmizdə təzadlar olduqca çoxdur. Bəşəriyyət qarşısında müxtəlif xarakterli çağırışlar durub. Bakı beynəlxalq humanitar məkanında məhz bu məsələlər qaldırılır. Qonaqpərvərliyinə və humanitar xarakterli məsələlərin qaldırılmasına şərait yaratdığına görə Azərbaycana təşəkkür edirəm".

# Askar Şakirov: "Dayanıqlı İnkişaf üzrə Bakı Forumu dünya birliyi üçün mühüm hadisədir"

Mən ilk növbədə, həm Azərbaycan üçün, həm də dünya birliyi miqyasında çox mühüm hadisə olan Dayanıqlı İnkişaf üzrə Bakı Forumunun keçirilməsi münasibətilə sizin hamınızı təbrik etmək istəyirəm. Bildiyiniz kimi, "Dayanıqlı İnkişafın Məqsədləri" (DİM) proqramı BMT çərçivəsində qəbul edilmiş və praktiki olaraq bütün dünya birliyi üçün maraq doğuran rəsmi proqramdır.

AZƏRTAC xəbər verir ki, Qazaxıstan Respublikasında İnsan haqları üzrə müvəkkil (Ombudsman), VI Bakı Beynəlxalq Humanitar Forumunda iştirak etmək üçün Azərbaycana gəlmiş Askar Şakirov bu fikirləri jurnalistlərə müsahibəsində söyləyib.

Qazaxıstan Ombudsmanı deyib: "Forumun gündəliyi BMT-nin "Dayanıqlı İnkişafın Məqsədləri" proqramının bütün aspektlərini əhatə edirdi. Forumun reprezentavliyi həm də onu göstərir ki, əksər ölkələr, əlaqədar beynəlxalq təşkilatlar bu hadisəyə böyük əhəmiyyət verirlər. Forumda Prezident İlham Əliyevin iştirak etməsi, BMT-nin və dayanıqlı inkişaf məqsədlərinin həyata keçirilməsi prosesinə bilavasitə cəlb edilmiş digər beynəlxalq təşkilatların bu tədbirdə çox yüksək səviyyədə təmsil olunması Bakı Forumunun əhəmiyyətindən xəbər verir".

Askar Şakirov daha sonra qeyd edib ki, Azərbaycanın və Qazaxıstanın milli hüquq-müdafiə təsisatları arasında qarşılıqlı əlaqələr kifayət qədər yüksək səviyyədədir.



Qazaxıstan Ombudsmanı sonda deyib: "Həmkarım Elmira Süleymanova ilə uzun müddətdir ki, birgə layihələrdə iştirak edirik. Hesab edirəm ki, bizim hüquq müdafiə təsisatlarının əməkdaşlığı iki qardaş ölkə arasında mövcud olan strateji tərəfdaşlığın tərkib hissəsidir".

# ADU-da tətbiqi dilçiliyin müasir problemlərinə dair beynəlxalq konfrans keçirilir





Oktyabrın 25-də Azərbaycan Dillər Universitetində (ADU) "Tətbiqi dilçiliyin müasir problemləri" mövzusunda üçüncü beynəlxalq konfrans öz işinə başlayıb. Əvvəlcə konfrans iştirakçıları ümummilli lider Heydər Əliyevin universitetin foyesindəki büstünün önünə gül düzərək xatirəsini ehtiramla yad ediblər. AZƏRTAC xəbər verir ki, konfransın işində Böyük Britaniya, Almaniya, Fransa, Çexiya, Polşa, Rusiya, Türkiyə, Gürcüstan, Finlandiya, Yaponiya, Bolqarıstan, Pakistan, Səudiyyə Ərəbistanı və digər ölkələrdən qonaqlar, eləcə də ADU-dan və respublikanın digər universitetlərindən nümayəndələr iştirak edirlər.

Plenar iclasda çıxış edən ADU-nun rektoru, akademik Kamal Abdulla rəhbərlik etdiyi universitetin Azərbaycanın təhsil sistemində özünəməxsus yer tutduğunu deyib. Rektor universitetdə dilçilik məsələlərinə xüsusi diqqət yetirildiyini, bu sahədə geniş araşdırmaların aparıldığını söyləyib. ADU-nun müstəqil təhsil müəssisəsi kimi yaranmasında ümummilli lider Heydər Əliyevin xidmətləri vurğulanıb. Bildirilib ki, bu ali təhsil müəssisəsi 1973-cü ildə ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə yaradılıb və 2000-ci ildə Ulu Öndərin Sərəncamı ilə profili daha da genişləndirilərək universitet statusu alıb. Konfrans çərçivəsində iştirakçılar Durham Universitetinin professoru Maykl Bayramın mühazirəsində (skayp vasitəsilə), eləcə də Konin Dövlət Tətbiqi Elmlər Universitetinin professoru Barbara Levandovskanın ustad dərslərində iştirak etmək şansı qazanacaqlar.

# Zəngilanın işğalından 25 il ötür

Oktyabrın 29-da Zəngilanın Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilməsindən 25 il ötür. 1988-ci ildən 1993-cü ilin noyabrınadək düşmən hücumlarına sinə gərən, yüzlərlə şəhid verən Zəngilan işğala məruz qalan ən sonuncu rayon oldu. Qubadlı və Cəbrayılın işğalı nəticəsində, mühasirəyə düşən rayon əhalisi çıxış yolunu Araz çayından İran ərazisinə keçməkdə gördü. Əkstəqdirdə, ikinci bir Xocalı Soyqırımının baş verməsi qaçılmaz olacaqdı.



Zəngilan inzibati rayon kimi, 1930-cu ildə təşkil edilib. Şimaldan Qubadlı, şərqdən Cəbrayıl, cənubdan İran İslam Respublikası, qərbdən Ermənistan Respublikası ilə həmsərhəddir. Zəngilan Birinci Qarabağ müharibəsində 188 şəhid verib, bugünədək rayonun 44 sakini itkin düşmüş sayılır. Bakı-Culfa-Naxçıvan dəmiryolunun üzərində yerləşən bu rayon mühüm strateji əhəmiyyətə malikdir. Ərazisi 707 kvadrat km, əhalisi isə 35 min nəfərdən çox olub. Rayonun iqtisadiyyatının əsasını kənd təsərrüfatı - üzümçülük, tütünçülük və heyvandarlıq təşkil edib. İşğal olunmazdan əvvəl, bir şəhər, bir qəsəbə və 83 kənddən ibarət olan Zəngilanda 9 məktəbəqədər müəssisə, 19 ibtidai məktəb, 15 orta məktəb, bir texniki peşə və musiqi məktəbi, 35 kitabxana, 8 mədəniyyət evi, 23 klub müəssisəsi və 22 kinoqurğu var idi.

Azərbaycan Prezidenti İlham Əliyev dəfələrlə bəyan edib ki, biz heç vaxt indiki vəziyyətlə barışmayacağıq, ərazi bütövlüyümüzü istənilən yolla bərpa edəcəyik, öz ərazilərimizi işğalçılardan təmizləyəcəyik və orada yeni həyat yaradacağıq. Bunu 2016-cı ilin aprel döyüşləri, 2018-ci ilin Naxçıvan əməliyyatında işğalçılardan azad edilmiş torpaqlarda Azərbaycan bayrağının qaldırılması sübuta yetirdi. Dövlət başçısının göstərdiyi qətiyyətli mövqe, gündən-günə hərtərəfli formalaşan qüdrətli Azərbaycan Ordusu və xalqımızın mübariz ruhu işğal olunmuş torpaqlarımızı gec-tez erməni işğalından azad edəcək, şəhidlərimizin qanı yerdə qalmayacaq, minlərlə köçkün öz yurd-yuvalarına qayıdacaqdır.

Onu da qeyd edək ki, digər məcburi köçkünlər kimi, zəngilanlılar da dövlət qayğısı ilə əhatə olunublar, onların həyat şəraitinin yaxşılaşdırılması üçün mühüm tədbirlər görülüb. Lakin bu diqqət zəngilanlıların doğma ocağa qayıtmaq arzusunu unutdurmayıb. Onlar inanırlar ki, Cənubi Qafqazın lider dövləti olan Azərbaycan öz torpaqlarını işğaldan azad edəcək və həmin vaxt çox da uzaqda deyil.

**ZÜMRÜD**

## Ramin Quluzadə: 6 qrant müsabiqəsində 117 layihə maliyyələşdirilib



İnformasiya Texnologiyalarının İnkişafı Dövlət Fondu 6 qrant müsabiqəsində 117 layihəni maliyyələşdirib. AZƏRTAC xəbər verir ki, bu barədə nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə "İnnovasiyalar həftəsi" çərçivəsində keçirilən tədbirdə deyib. O bildirib ki, nazirliyin nəzdində Yüksək Texnologiyalar üzrə Tədqiqat Mərkəzi yüksək texnologiyalar sənayesində müxtəlif növ yeni materialların alınması, nanotexnologiyalar sahəsində prioritet olan istiqamətlər üzrə işlər aparır.

Nazir qeyd edib ki, innovativ sahibkarlığın dəstəklənməsi üçün nazirliyin yanında İnformasiya Texnologiyalarının İnkişafı Dövlət Fondu fəaliyyət göstərir. Kommersiyalaşmış uğurlu layihələrin maliyyələşməsi üçün fond birgə investor kimi çıxış edir. Artıq bu məqsədlə 6 qrant müsabiqəsində 117 layihə maliyyələşdirilib.

# Bakcell dünyada ilk dəfə olaraq mobil rezidentlik təqdim edib

Azərbaycanın İlk Mobil Operatoru və Ən Sürətli Mobil İnternet Provayderi Bakcell şirkəti Rəqəmsal Ticarət Qovşağının beynəlxalq konfransında dünyada ilk dəfə olaraq mobil rezidentlik təqdim edib. SİA xəbər verir ki, ölkə adından təqdim edilmiş ilk Rezidentlik rəsmi olaraq İSESCO-nun baş direktoru Əbdüləziz bin Osman Əl-Tuveycriyə verilib.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin fərmanına əsasən ölkəmizin bütün dünya üzrə diplomatik nümayəndəlikləri və konsulluqları Azərbaycanda biznes qurmaq arzusunda olan və ya ölkəyə investisiya yatırmaq istəyən bütün xarici vətəndaşlara "Asan İmza" mobil elektron imzanın elektron sertifikatlarını təqdim etmə səlahiyyətlərinə malikdir. "Bakcell ölkədə innovasiya də rəqəmsallaşmanın tətbiq edilməsinə yönəlmiş bütün dövlət təşəbbüslərinə dəstək göstərməyə hazırdır. Artıq ikinci ildir ki, şirkətimiz Rəqəmsal Ticarət Qovşağının konfransına dəstək göstərir və biz İSESCO-nun baş direktoru cənab Əbdüləziz bin Osman Əl-Tuveycriyə ilk mobil rezidentliyi təqdim etməkdən qürur duyuruq", deyə Bakcell şirkətinin baş icraçı direktoru Nikolai Beckers bildirib.




Bakcell şirkətinin sponsorluğu ilə İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi (İİTKM) və İslam, Təhsil, Elm və Mədəniyyət Təşkilatı (İSESCO) tərəfindən keçirilən "Rəqəmsal Ticarət Qovşağının beynəlxalq konfransı" innovasiya sahəsində ən nüfuzlu tədbirlərdəndir. Konfransda ABŞ, Tailand, Böyük Britaniya, Estoniya, Türkiyə və Mərakeş daxil olmaqla 20-dən artıq ölkədən 200-ə yaxın nümayəndə ilə yanaşı yüksək vəzifəli dövlət məmurları, Azərbaycanda fəaliyyət göstərən ictimai təşkilatlar və dünyanın aparıcı ticarət platformalarının nümayəndələri iştirak edib.

Bu il Rəqəmsal Ticarət Qovşağının əsas mövzusu elektron və mobil rezidentlik proqramının Azərbaycanda və bütün dünyada təqdim edilməsi olub. İştirakçılar elektron və mobil rezidentliyin sahibkarlar üçün güclü bir alətə çevrilməsini müzakirə ediblər. Tədbirdə həmçinin elektron xidmətlərin ölkələrarası mübadiləyə təsiri və innovativ inkişafın digər aktual mövzuları müzakirə olunub. Həmçinin bildirilib ki, yeni yaradılan www.EnterpriseAzerbaijan.com portalı birbaşa xarici investisiyaların cəlb edilməsi potensialının təkmilləşdirilməsi və investisiya cəlbediciliyinin daha da artırılması məqsədilə yaradılan əlverişli platformadır.

Bakcell şirkəti müxtəlif layihələrə dəstək göstərməklə və özünün AppLab inkubasiya mərkəzi vasitəsilə ölkədə innovasiya, rəqəmsallaşma, İT sahəsində startaplar və ümumi startap mühitinin inkişafına böyük töhfə verməkdədir.



## Bu gün söyüşürlər, sabah isə...

RÖVŞƏN
rovsen.rasulov@mail.ru

***Şər, böhtan və qarayaxma üslubu ilə seçilən dağıdıcı müxalif düşərgənin yerli və xarici missionerləri artıq uzun müddətdir ki, leksikonlarını küçə söyüşləri ilə zənginləşdiriblər. Yəni onlar üçün fərqi yoxdur, hətta özləri-özləri ilə aralarındakı "razborkalar"ını apararkən, ən ağır söyüş və təhqirlərini bir-birlərinə ünvanlayırlar.***

Adları indiyə qədər cəmiyyətə məlum olmayan şəxslərin simasında müxalifət özünə yeni "əqidədaşlar" tapır, canlı bağlantılara qoşulur və sonrası da məlumdur. Lakin elə məsələlər də üzə çıxır ki, artıq ittihamlar onların özlərinə tərəf çevrilmiş olur. Biz, bunu Qurban Məmmədov-AXCP və "Milli Şura", "REAL"-Müsavat, İqbal Ağazadə-Arif Hacılı, yaxud da Avropa müxalifəti arasında gedən dava-dalaşlardan da açıq şəkildə müşahidə etmişik, hazırda da etməkdəyik...

Əslində, bu kimi əxlaqsız mübarizə metodunun müxalif düşərgə üçün heç də yad olmadığını göstərən yaxın keçmişdə kifayət qədər sübutlar mövcuddur. Bunun üçün uzağa getməyərək, cəmiyyətə özünü "ana müxalifət lideri" kimi sırımağa çalışan Əli Kərimliyə və onun tərəfdarlarına nəzər yetirmək kifayətdir - Qənimət Zahid, Azər Əhmədov, Natiq Ədilov, Xədicə İsmayıl, Türkel Kərimlinin vaxtilə yayılmış videoları və fotoşəkilləri hələ də "Google"nin arxivlərində qalmaqda davam edir. Bu şəxslərin təmsil olunduğu düşərgənin öz aşkar tərbiyəsizliklərini "siyasi mübarizə" görüntüsü altında daşıması, ola bilsin ki, onlar üçün normal haldır. Yəni bu gün Orduxan Teymurxan birdən-birə durub AXCP sədri Əli Kərimlini söyüş atəşinə tutarsa, sabahı günü onlar yenidən eyni cinahdan çıxış edərlərsə, bu, hər ikisi üçün öyrəncəli bir haldır. Eləcə də, E.Quliyev Q.Məmmədovu bu gün ən ağır təhqirlərə məruz qoyursa və qarşı tərəfin cavabını alırsa, onlar bir müddət sonra hər şeyi unudub, olurlar "qardaş"...Yəni dünənə qədər bir-birlərinə olmazın söyüşlər söyməkləri vurulur, necə deyərlər, boyunlarının ardına!

Adını "siyasi mübarizə" qoyub qarşılarındakı insanlarla yanaşı, özlərini də küçə söyüşləri ilə təhqir edən bu insanlar onları, ilk növbədə, öz ailə üzvlərinin izlədiyinin, yəqin ki, fərqindədirlər. Amma görünür, onlar öz ailələrinə bunu da rəva görürlər. Buna isə jarqon ifadəsi ilə desək, "peysərlik" deyilir...

Ümumiyyətlə, araşdırmalar göstərir ki, radikal düşərgə təmsilçiləri öz güclərini Avropadakı məlum antiazərbaycançı şəbəkədən alırlar və fəaliyyətlərini də buna uyğun koordinasiya edirlər. Əxlaqları korlanmış "sosial media qəhrəmanları" Avropada oturub Azərbaycan əleyhinə təbliğat aparırlar və radikal düşərgə təmsilçilərinə konkret istiqamət verirlər. Amma maraqlısı odur ki, xaricdəki siyasi buqələmunlar etiraz formalarını açıq və sivil formada göstərmək üçün, məkan olaraq izdihamlı yerləri yox, ayaqyollarını seçirlər. Bununla da, mahiyyət etibarilə "ayaqyolu müxalifəti" funksiyasını daşıdıqlarını göstərirlər. "Ayaqyolu müxalifəti"nə başçılıq edən Ə.Kərimli və onun birbaşa nəzarətində olan cəbhə trolları da ən təhqiramiz ifadələrlə insanların heysiyyatına toxunurlar. Onlar üçün müqəddəs dəyərlər artıq yoxdur. Əxlaq problemləri mövcud olan bu şəbəkənin konkret missiyası var: bizi dəstəkləməyənlər düşmənlərimizdir. Ancaq bir əxlaqsızlıq və mənəviyyatsızlıq baş verdikdə, bunu sosial şəbəkə vasitəsilə tirajlayırlar.

Beləliklə, şəxsi maraqları naminə bütün müqəddəs dəyərləri tapdalayan və anti-Azərbaycan şəbəkə ilə sıx iş birliyinə gedən bu kimi söyüş ilə qidalanan ünsürlər toplumu öz məqsədlərinə çatmaq üçün hər bir iyrənc, milli-mənəvi dəyərlərə sığmayan vasitələrə əl atırlar. Görünür, milli maraqlar qarşısında məsuliyyət hissi olmayan bu insanlar ictimai rəydə ikrah hissi doğuran iyrənc propaqanda metodları ilə gündəmdə qalmağa çalışırlar. Belə propaqandaların isə axırı heç də yaxşı qurtarmır. Əlbəttə ki, onların özləri üçün...

# Azərbaycan Fransa şirkətləri ilə əlaqələrini yenidən nəzərdən keçirə bilər

## *Rəsmi Parisin siyasi iradəsizliyi və ermənipərəstliyi Azərbaycan-Fransa əlaqələrinin və ATƏT-in Minsk Qrupunun üzvü kimi üzərinə götürdüyü missiyanın ruhuna tamamilə ziddir*

***Bu gün Azərbaycan ilə Fransa arasında sıx əməkdaşlıq əlaqələri mövcuddur. Münasibətlər özünü sosial-iqtisadi, eləcə də, humanitar sahədə göstərir. Xüsusilə də, enerji sektorunda “Suez”, “Total”, “Thales” kimi şirkətlər respublikamızda dövlət sifarişi ilə həyata keçirilən çoxsaylı layihələrin mühüm tərəfdaşlarıdır. Bu layihələrin dəyəri təqribən 2 milyard avroya yaxındır. Mədəniyyət sahəsində isə, əsasən, Heydər Əliyev Fondu Fransada çox möhtəşəm layihələr reallaşdırır. Yəni görünən odur ki, iki ölkə arasında münasibətlər hərtərəfli qaydada inkişaf edir. Lakin son dövr ərzində, Fransanın, ATƏT-in Minsk Qrupunun üzvü və Azərbaycanın tərəfdaşı kimi, əməkdaşlıq əlaqələrinin ruhuna zidd addımlar atmaqdadır.***



Azərbaycan ictimaiyyəti bunu Frankofoniya sammiti zamanı gördü və Fransanın bir neçə bölgəsinin bələdiyyə başçılarının Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş ərazilərinə səfər etmələrinə, həta qondarma separatçı rejim təmsilçiləri ilə “bəyannamə” imzalamalarına dözmək fikrində deyil. Sentyabr ayında Fransanın Alforvil, oktyabr ayında isə Valas, Sent-Etyen və Arnuvil şəhərlərinin bələdiyyə başçılarının Azərbaycanın işğal olunmuş ərazilərinə qanunsuz səfərləri Azərbaycan-Fransa əlaqələrinin ruhuna tamamilə zidd hesab edir.

Bütövlükdə, bu səfərlərin həyata keçirilməsi, ilk növbədə, beynəlxalq hüququn norma və prinsiplərinin və Azərbaycan qanunlarının kobud şəkildə pozulması deməkdir. Çünki Ermənistan tərəfindən işğal edilmiş Dağlıq Qarabağ və ətraf rayonlar Azərbaycanın beynəlxalq səviyyədə tanınmış torpaqlarıdır. Ona görə bu ərazilərə səfər edərək separatçı rejim nümayəndələri ilə görüşən fransız merlər beynəlxalq hüququn normalarını kobud şəkildə tapdalayıblar. Həm də bu addımları ilə Azərbaycan-Fransa siyasi münasibətlərinə zidd olan hərəkətlərə yol veriblər. Digər tərəfdən, Fransanın bir neçə bələdiyyə başçıları tərəfindən Azərbaycan Respublikasının işğal edilmiş ərazilərinə qanunsuz səfərlərin həyata keçirilməsi Azərbaycan qanunlarının kobud şəkildə pozulması halıdır və Ermənistanın gücdən istifadə etməklə işğal etdiyi Azərbaycan ərazilərində yaratdığı qondarma separatçı rejimin təşviqinə xidmət edir.

Aparılmış təhlillər göstərir ki, Fransa merlərinin səfərləri əvvəlcədən məqsədyönlü, planlaşdırılmış şəkildə həyata keçirilib. Belə ki, Azərbaycana qarşı qərəzli mövqeyi ilə seçilən və erməni lobbisinin təsiri altında olan Fransa Milli Məclisinin sabiq deputatı Fransua Roşbluanın, habelə, Fransada fəaliyyət göstərən qondarma rejimi ilə “dostluq dərnəyi”nin digər üzvlərinin belə səfərlərə qoşulması onların sifarişli xarakter daşıdığını açıq-aşkar şəkildə sübut edir. Bu mənada, Fransa bələdiyyə başçılarının bu səfərləri həm də işğal və azərbaycanlıların etnik təmizlənməsi əsasında qurulan status-kvonun təşviqini həyata keçirmək baxımından birbaşa təxribatdır. Çünki bunu başqa cür qiymətləndirmək mümkün deyil! Bu səfərlərdə iştirak edənlərin işğaldan əvvəl azərbaycanlıların yaşadığı və Qarabağın tarixi mərkəzi olan Şuşa şəhərinin, Laçının qondarma yerli hakimiyyətləri ilə “dostluq bəyannamə”lərini imzalamaları isə, o deməkdir ki, Fransanın bələdiyyə başçıları Azərbaycan torpaqlarının işğalını, azərbaycanlıların əzəli, tarixi torpaqlarından etnik təmizlənmələrini qəbul edir, faktiki etnik təmizləmələri dəstəkləyirlər. Bu, özlüyündə bir cinayətdir. Əlbəttə ki, həmin “bəyannamə”lər heç bir hüquqi qüvvəyə malik deyil.

Xatırlatma lazımdır ki, F.Roşebluan həmişə erməni lobbisinin təsiri altında fəaliyyət göstərib, ermənilərdən daha artıq ermənilиyi ilə seçilib. Bu adam erməni lobbisi tərəfindən maliyyələşdirilən, dəstəklənən, onun faktiki ruporuna çevrilən bir şəxsdir. O, açıq-aşkar şəkildə sifarişli, Azərbaycan-Fransa münasibətlərinə xələl gətirən fəaliyyətlə məşğuldur və onun ətrafına da bir qrup insan toplaşıb. F.Roşebluan Avropa Şurası Parlament Assambleyasında fəaliyyət göstərdiyi dövrdə də Fransanın deyil, daim ermənilərin maraqlarından çıxış edib, onların mənafeyini qorumaq üçün dəridən-qabıqdan çıxıb. Ona görə də, onun da Dağlıq Qarabağa gəlməsi açıq şəkildə bu səfərin sifarişlə həyata keçirildiyini göstərir. Məhz onun kimilərinin siyasi riyakarlığı nəticəsində, erməni yalanları Fransada ayaq tutub yeriyir.

Yerli özünüidarəetmə orqanlarının bu kimi təxribatçı əməlləri Fransa və Azərbaycan arasında imzalanmış sazişlərin dili və ruhu ilə, eləcə də, Fransanın milli qanunları ilə ziddiyyət təşkil edir. Çünki Fransanın xarici işlər və Avropa məsələləri üzrə naziri və daxili işlər naziri tərəfindən 2018-ci ilin 24 may tarixində Yerli özünüidarəetmə orqanlarının xarici fəaliyyətinin hüquqi çərçivəsi üzrə imzalanmış səmimi təlimat bu qurumları Fransanın beynəlxalq öhdəliklərinə hörmət etməyə çağırır və Fransa tərəfindən tanınmamış ərazi vahidlərinin separatçı qurumları ilə hər hansı şəkildə müqavilələr bağlamaq, səfərlər həyata keçirmək və birgə tədbirlər təşkil etməyi qadağan edir. Fransa Konstitusiyasının 73-cü maddəsi və yerli özünüidarəetmə qurumlarının ümumi kodeksinin L.1115-1 maddəsinə uyğun olaraq qəbul edilmiş və qüvvədə olan bu təmimi təlimat məcburi xarakter daşıyır. Lakin məlum olmayan səbəblərdən Fransa hökuməti Azərbaycanın suverenliyi və ərazi bütövlüyü məsələsinə dair bu sənədin müddəalarının dərhal və şərtsiz həyata keçirilməsi üçün müvafiq addımların atılması istiqamətində qətiyyət göstərmir.

Həmçinin, Fransa yerli özünüidarəetmə orqanlarının bu kimi qanunsuz addımları Fransanın ATƏT-in Minsk Qrupunun həmsədri qismində çıxış etdiyi, Ermənistan-Azərbaycan münaqişəsinin tezliklə sülh yolu ilə həlli prosesinə yardım etmir və həmçinin, Fransanın vasitəçi qismində nüfuzuna ciddi xələl gətirir. Fransa barəsində etimadın ciddi şəkildə sarsılmasına xidmət edir. Hətta Fransa XİN tərəfindən qondarma rejimin tanınmaması barəsində verilən açıqlama qənaətbəxş xarakter daşımır. Fransa, nəinki tanımamalı, BMT Təhlükəsizlik Şurasının daimi üzvü olaraq, Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılmasını tələb etməlidir.

Bu məqamda, daha bir faktora da diqqət çəkmək lazımdır ki, özünü mühacir adlandıran bəzi Azərbaycan vətəndaşları Fransanın ərazisində yerləşərək ölkəmizdə terror və zorakılığa çağıran bəyanatlarla çıxış edirlər. Fransa hökuməti tərəfindən nifrət nitqi əsasında terrora və zorakılığa çağırış edən bu şəxslərin fəaliyyətinin qarşısını almaq üçün heç bir hüquqi tədbir görmür. Deyilənlərdən göründüyü kimi, Fransanın ikitərəfli əməkdaşlıq, eləcə də, Ermənistan-Azərbaycan münaqişəsi kontekstində tutduğu mövqeyi səmimi və məqbul sayıla bilməz. Əgər Fransa Azərbaycana münasibətdə bu kimi mövqeyini sərgiləməkdə davam edəcəksə, Azərbaycan da bir sıra məsələləri, məsələn, Fransa şirkətləri ilə əlaqələrini yenidən nəzərdən keçirə bilər. Həmin şirkətlər Azərbaycandan pul qazanırlar. Amma sual oluna bilər ki, Azərbaycanın ərazi bütövlüyünə hörmət etməyən, qondarma rejimlə qeyri-qanuni sənədlər imzalayan, faktiki cinayəti dəstəkləyən, onu tanıyan, bələdiyyələrə lazım olan qiyməti verməyən ölkənin biznes dairələri ilə əlaqələr bizə lazımdırmı? Əlbəttə ki, yox! Azərbaycan öz yolu, müstəqil siyasəti və cəsarətli mövqeyi olan dövlətdir. Rəsmi Bakı münasibətlərdə qeyri-səmimi olan tərəfdaşlara yerini göstərməyin də yollarını yaxşı bilir...

***“Səs” Analitik Qrupu***



## *Müxalifət “kökəlib”*

**İLHAM**

***İnsan orqanizmi o qədər mürəkkəb və çoxşaxəlidir ki, onun müzakirəsini açmaq, təhlilini aparmaq, diaqnozunu tam şəkildə qoymaq çox çətindir. Bədəndə bəzən elə proseslər baş verir ki, dünyanın tanınmış biliciləri, təbibləri və böyük uzmanları ondan baş çıxara bilmir. Bildiyimiz yalnız odur ki, insan orqanizmində kök salan piylənmə heç də yaxşı əlamət kimi qiymətləndirilmir. Köklük insanda kompleks yaradır, bəzən depressiyaya düşməsi səbəbindən, insan müxtəlif xəstəliklərə tutulur. Elə diribaş və imkanlı şəxslər var ki, onlar müxtəlif əməliyyatlar və ya süni yollarla köklükdən azad olmağa çalışırlar. Ancaq tibb elminin gəldiyi qənaətə görə, əməliyyatlar yolu ilə köklüyün aradan qaldırılması insan orqanizmində fəsadlarsız ötüşmür.***

Yəni bədən üzvlərindən hansısa birində xəstəliklər yaradır. Hətta bu mənada, ABŞ-ın Minnesota Universitetinin alimlərinin gəldiyi qənaətə görə, əməliyyatlar yolu ilə piylənmə aradan qalxır, ancaq sonrakı mərhələdə pasiyentlər insult keçirmək risqi ilə üzləşirlər. Tədqiqatçıların araşdırmasında, o da bəlli olub ki, köklükdən xilas olmağı əməliyyat yolu ilə aradan qaldıranlar buna nail olsalar da, düşünmək və qərar vermək imkanından məhrum olurlar. Sual yaranır: köklük nədən və necə yaranır? Bunun cavabını uzun-uzadı araşdırmadan və axtarışdan sonra verməyə ehtiyac yoxdur. Pullu-imkanlı, uzun müddət hərəkətsiz olan insanlar piylənmə ilə üzləşirlər. Mənim özəl araşdırmalarım zamanı o fikrə gəldim ki, son zamanlar Azərbaycanda bəzi şəxslər, xüsusilə də, siyasətdə olan və xaricdən qrant alıb müxtəlif formalarda həyat tərzi seçənlər də piylənmə ilə üzləşirlər. Bunu sosial şəbəkələrdə müxtəlif şərhlərdən də açıq şəkildə görmək mümkündür. Yazılanlardan və deyilənlərdən belə başa düşülür ki, Müsavat başqanı Arif Hacılı və keçmiş başqan İsa Qəmbər, eləcə də, AXCP sədri Əli Kərimli digər əqidə yoldaşlarına nisbətən, qarınları bir qədər irəli çıxmaqla yanaşı, boyları da bir-iki santimetr artıb. “Ümid” partiyasının sədri İqbal Ağazadənin müxalifətin təbliğat maşını olan “Meydan” TV-yə verdiyi açıqlamasından, belə başa düşdük ki, Müsavatın keçmiş və indiki başqanının kökəlmələrinin başlıca səbəbi xaricdən 3 milyon dollar almalarıdır. “Vəhdət” partiyasının sədri bizimlə söhbətində oxucuları inandırmağa çalışdı ki, İqbal Ağazadə rəqəmləri təhrif edir: “Əslində, 3 milyon deyil, müxalifət 30-35 milyon dollar xaricdən pul alır”.

İqbal Ağazadənin söylədiklərindən və Tahir Kərimlinin fikirlərindən sonra, bir daha əmin olursan ki, son vaxtlar müxalifətin aksiyalara meyil göstərməsi, sosial şəbəkələrdə xor dərnəyinin üzvləri kimi ağız-ağıza verib cikkildəmələrini, xaricdəki mühacir “söyüş qrupu”nun ölkəmiz haqqında şər-böhtanlarının baiskarı xaricdən verilən maliyyə vəsaitidir. İndi demək çətindir ki, xaricdən pul alan müxalif partiya sədrləri fərdi qaydada neçə kilodular. Bunu müəyyənləşdirmək üçün onları bir-bir tutub, qapanın üstünə qaldıraraq çəkilərini müəyyənləşdirmək də çətindir. Çünki bu məxluqlar xoşluqla kiminsə arzusunun həyata keçirilməsinə razı olmazlar. Zor gücünün tətbiqi də qəbuledilməzdir. Yalnız yeddinci hisslə və ya təxmini hesablamalarla xaricdən qrant alan müxalifət partiya sədrlərinin çəkilərini müəyyənləşdirmək olar. Daha doğrusu, demək olar ki, Arif Hacılı, İsa Qəmbər, Cəmil Həsənli, Əli Kərimli və digərləri, həqiqətən də, bir qədər piyləniblər, yeni kökəliblər. Belə getsə, ABŞ alimlərinin araşdırmaları nəticəsində, gəldikləri qənaət, sözügedən şəxslərdən yan keçməyəcək.

# Azərbaycana qarşı formalaşdırılan qərəzli təşkilatlar

## *“Amnesty İnternational”ın növbəti yalanı üzə çıxdı*

***Azərbaycana qarşı aparılan qarayaxma kampaniyasının aktiv iştirakçılarından olan “Amnesty İnternational” növbəti qərəzli iddialarla çıxış edib. Vaxtaşırı olaraq, Azərbaycanda mövcud olan demokratik mühitin inkişafına, bu istiqamətdə yürüdülən uğurlu siyasətə, sarsılmaz xalq-dövlət birliyinə qarşı bir çox qərəzli beynəlxalq təşkilatlar, o cümlədən, “Human Rights Watch”, “Freedom House”, “Sərhədsiz Reportyorlar”, “Amnesty İnternational” və s. təşkilatlar əsassız hesabatları ilə çıxış edir, məntiqə söykənməyən bəyanatları ilə gündəmə gəlirlər.***

AMNESTY INTERNATIONAL

Bu cür təşkilatlar sıradan hesabatlar hazırlamırlar, onların bu məsələdə hamisi rolunu, məhz güclü erməni lobbisi oynayır. Bir çox hallarda bənzər təşkilatların şər-böhtan xarakterli hesabatları, məhz özlərini “müxalifət”, eləcə də, “insan hüquqlarının müdafiəsi” istiqamətində fəaliyyət göstərən siyasiləşmiş QHT-ların ötürdüyü yalan məlumatlar hesabına ictimailəşdirilir.

Daha bir fakt budur ki, özlərini demokratiyanın, insan hüquqlarının müdafiəçiləri kimi təqdim edənlər, öz daxillərində açıq fikrə, reallığa doğru qiymət verməyi bacarmırlar. Bu isə, bir daha bəlli olur ki, bu təşkilatların məqsədləri qərəz və böhtan üzərində fəaliyyət qurmaqdan ibarətdir və “Amnesty İnternational”ın “siyasi məhbus” çağırışı ölkəmizə yönələn nə ilk, nə də sonuncu riyakar yanaşması deyil.

Çünki Azərbaycan demokratik prinsipləri rəhbər tutaraq, inkişaf edən hüquq dövlətidir. Ölkəmizin konstitusiyasından irəli gələrək, ayrı-ayrı qanunlarda vətəndaşların hər bir hüquq və azadlığı əksini tapıb. O cümlədən, ölkə vətəndaşlarının sərbəst toplaşmaq azadlığı ilə bağlı hüquqları qanunvericiliklə tam təsbit olunub.

### “Amnesty İnternational” dağıdıcı müxalifətin əsassız hesabatına rəy verir

“Amnesty İnternational” və digər onun kimi təşkilatın belə bir fikir ortaya atacağı gözlənilən idi. Çünki bu cür qərəzli təşkilatlar antiazərbaycançı şəbəkənin elementləridir. Ona görə də, Azərbaycan dövlətinə qarşı daim qərəzli və inkarçı mövqedə dayanırlar. Hakimiyyət orqanları ilə əməkdaşlıqdan qaçan bu təşkilatlar onların maraqlarına xidmət edən dağıdıcı müxalifətin və bəzi siyasiləşmiş qeyri-hökumət təşkilatlarının ötürdükləri əsassız məlumatlara əsasən, hazırladıqları hesabatlarda həmişə Azərbaycana qarşı qərəzli mövqe tuturlar. Belə hesabatların, xüsusilə, Azərbaycanın qazandığı beynəlxalq uğur zamanı ortaya atılması həmin qərəzin bir daha təsdiqidir.

“Amnesty İnternational” və Azərbaycana qarşı qərəzli mövqe tutan digər təşkilatlar, yaxşı olardı ki, elə dünyaya demokratiya dərsi keçmək iddiasında olan Avropa ölkələrində mitinqlərin zorakı yolla dağıdılmasına münasibət bildirsinlər. “Amnesty İnternational” kimi təşkilatlar Azərbaycanla bağlı uydurma, qərəzli iddialar ortaya qoymaqdansa, Avropa ölkələrində vəhşiliklə pozulan insan hüquqlarını müdafiə etsələr, daha səmimi görünərlər. Bu isə, hələlik, mümkünsüzdür. Çünki onlar, əvvəl də qeyd etdiyimiz kimi, antiazərbaycançı şəbəkənin tərkib hissələridir.

***R.HÜSEYNOVA***

# Dünya siyasətini “zavoddan yanacaq oğurlamaqla” eyniləşdirən eks-spiker

## *Rəsul Quliyevin özünə oxşar “Meydan” TV-də növbəti sərsəmləmələrini dilə gətirib*




***ABŞ-da mühacir ömrü yaşayan Rəsul Quliyevin özünə oxşar “Meydan” TV-yə verdiyi müsahibəsində növbəti dəfə özünü rüsvay edib. Özünü “güclü siyasətçi” adlandıran bu zavod talançısı siyasətlə oğurluğu bir səviyyədə tutur. Bir daha anladım ki, bu adam özünü o qədər bəyənib ki, “yetənə yetir, yetməyənə də bir daş atır”. Onun sərsəmləmələrindən belə çıxır ki, guya ekstremal şəraitdə çoxlarına “məsləhət” verirmiş.***

### “Badbaxt” mühacirin növbəti sərsəmləmələri

Eks-spiker indi də özünə oxşar “Meydan” TV-də növbəti sərsəm çıxışlar etməyə başlayıb. Onun sərsəmləməsindən belə çıxır ki, guya 15 mart hadisələri zamanı R.Quliyev nə edəcəyini bilmirmiş. Qarabağ müharibəsi qazisi Xəqani Rzaquliyev R.Quliyevin sərsəmləməsinə münasibətində bildirib ki, bu adam özündən müştəbeh “badbaxt” mühacirimiz keçmiş döyüşçülər və qəhrəman “OMON”-çular haqqında istehza ilə danışaraq, nə etdiyimizi S.Osmanqızından soruşur: “Ermənıyə yanacaq satan, Bişkekdə atəşkəsə imza atan, zavallı mühacir, heç olmasa, ABŞ-dakı erməni “axperciklərindən” (dostu İ.Muradyandan da olar) mənfur erməni işğal planı barədə məlumat ala bilərdi”.

X.Rzaquliyevin sözlərinə görə, bu düşük, “badbaxt” ABŞ-a qaçdığı gündən bu günədək antierməni bir cümlə belə işlətməyib: “Keçmiş döyüşçüləri və əlilləri aşağılayan fikirləri dəfələrlə etiraz doğurub. R.Quliyev dünya siyasətini hələ də “zavoddan yanacaq oğurlamaqla” eyniləşdirir. Bu “badbaxt” bilmir ki, ölkə Prezidenti İlham Əliyev Azərbaycanın müstəqillik tarixində ərazi itirməyən və bir neçə hərbi-strateji məntəqəni azad etməyi bacaran tək Prezidentdir, düşmənə qarşı mövqeyini aşkar ortaya qoyan bir rəhbərdir. “Badbaxt” Rəsul Quliyevi, görəsən, ermənilərlə nə bağlayır?”

### Sərdar Cəlaloğlu: “Rəsul Quliyev, yaxşı olardı ki, öz günahlarından da danışsın”

ADP sədri Sərdar Cəlaloğlu eks-spikerdən hələ çox sərsəmələr eşidəcəklərini bildirib: “R.Quliyev “badbaxt” adamdır. Bir ara partiya sədrlərinin istefasını, müxalifətdəkilərin əxlaqsızlıq və cinayətkarlıqlarını deyirdi. Mən başa düşmürəm ki, R.Quliyev uzun müddət Azərbaycandan kənarda yaşamasına baxmayaraq, niyə bu cür hərəkətlərə yol verir. Açığını deyim ki, mən çox təəccüblənirəm”.

ADP sədrinin fikrincə, R.Quliyevin müəyyən insanların seçiminə belə hörmətsizlik etməyə haqqı yoxdur: “Mən bunları anlaya bilmirəm. O öz günahlarından da danışsın. Yoxsa hərəyə bir eyib qoyub, “mən hamıdan düzgünəm” demək olmaz. Ayının bir sözü var, deyir: “Pis uşaqlarla dostluq eləmə”. Yaxşı olardı ki, bu məsləhəti R.Quliyev özünə də versin, necə deyərlər, “kor-kora kor deməsə, bağrı çatlar.”

Göründüyü kimi, R.Quliyev dünya siyasətini hələ də “zavoddan yanacaq oğurlamaqla” eyniləşdirir. Bir də, oğurluqla ömür sürən R.Quliyevdən bundan artıq heç bir şey gözləmək də olmaz.

***Rəfiqə HÜSEYNOVA***

## “Bu gün Ermənistanda oyun oynayırlar”

“Bu gün Ermənistanda oyun oynayırlar. Təbii ki, bu oyunu da Paşinyanın təkidi ilə aparırlar”. Bunu SİA-ya açıqlamasında politoloq Qabil Hüseynli deyib. Onun sözlərinə görə, Ermənistan konstitusiyasına əsasən seçkilər müddətində baş nazir istefa verməlidir: “Onun yerinə isə yenisi seçilməlidir. Amma Paşinyan həmişə hər şeyə hökm etdiyinə görə, yenisinin seçilməsinə icazə vermir və bununla bağlı parlamentdəki bütün franksiyalarla danışıqlar aparıb. Onlar da Paşinyanın adamlarının qorxusundan Paşinyan nə edirsə onu edirlər. Yəni birinci turda baş nazir seçilmədi. Əgər ikinci turda parlament baş naziri seçməzsə özünü buraxılmış elan edəcək və yeni seçkilərin vaxtının elan edilməsini göstərəcək. Bu bir növ öz-özünə intihar etməyə bənzəyir”.



## *Yada düşür “xatirələr”*

RƏFİQƏ

***Qəribə səslənir. Müxalifət, dünənə kimi açmadığı “xatirələr”ini dilə gətirdiklərini görüb, öz-özümə düşünürəm: əcəba, ölüməmi gedirlər? Axı, onlar o “xatirələr”ini danışırlar ki, 2003-cü ildən etibarən artıq arxivə atılıblar. Bəlkə də bu sualın heç yeri deyildi. Çünki 25 ildir, ölü olduqları kimi, təfəkkürləri də elə ölüdür və 25 ildir “bəlkə də qaytardılar” xəyalı ilə yaşayırlar. İndi isə gördülər ki, müstəqil, güclü ölkə və onun xalqı güclü liderlə birlikdədir. Başlayıblar “xatirələr yaddaşlarda qalmağa”. Çünki bilirlər ki, haqqdan və xalqdan qaçmaq olmaz.***

Elə bu günlərdə “Ümid” partiyasının sədri İqbal Ağazadə “Azadlıq salnaməsi”ndən danışdı. Müsavatın indiki başqanı Arif Hacılı ilə 15-16 oktyabr 2003-cü il hadisələrini yada salaraq, “özünü müxalifətin “ən güclü lideri” kimi təqdim edən İ.Ağazadə Müsavatın keçmiş başqanı İ.Qəmbəri qorxaq adlandırdı. İndiki başqan A.Hacılı da “tərəfkeşlik” edərək, İqbalı “səviyyəli” olmağa çağırdı. İqbal da müsavatdakıları “səviyyəsizlər səviyyəsizlərin yanında olar” deyib, xaricdən verilən 3 milyon dolları qadınların alt paltarında hara qaçırdıqlarını soruşdu: “Əlbəttə ki, cavab verməyə üzü də yoxdur. Çünki o milyonlarla dollar sən A.Hacılının cibinə gedib”.

### Rəhim Qazıyev İsa Qəmbərlə Cəmil Həsənliyə dozanqurdu dedi

Elə bu “xatirələrə” qoşulan sabiq müdafiə naziri Rəhim Qazıyev İ.Qəmbərlə Cəmil Həsənlinin həqiqətlərdən qaçdığını, 3 milyon dollar pulu aradan çıxardıqlarını bildirib. “AXC-Müsavat rəhbərləri bünövrədən satqın olublar. Ləkəli və satqın olan bu adamlar həyasızdırlar”.

### Pənah Hüseyn yoldaşlarını “mat” qoydu

Bunun ardınca AXP sədri Pənah Hüseyn isə müxalifətçi dostlarını elə “mat” etdi ki, necə deyərlər, üzlərinə tüpürsəydi, ondan yaxşı idi: “Yaranmış vəziyyətdə dəqiq demək lazımdır. 15-16 oktyabrdan bu günə qədər olanların bir adı var: MƏĞLUBİYYƏTDİR. Öz miqyasına və nəticələrinə görə ağır məğlubiyyətdir” P.Hüseynin sonrakı sözü isə bir daha müxalifətin bu günə kimi nə düşüncəsi, nə də təfəkkürü dəyişib. FAKT: “Lakin nə dünyanın axırıdır, nə də demokratiyanın və demokratik düşərgənin. İlan qabığını atır, ağaclar yarpağını tökür, yer örtüyünü dəyişir. Ancaq nə ilan ölür, nə ağac quruyur, nə yer dağılır. Tanrınınkı Tanrıya, şeytanınkı şeytana dönür. Biz də elə”.

# İnsan hüquqları universallaşma mərhələsində

***XX əsrin ortalarından başlayaraq, insan hüquqlarının reallaşması artıq ayrı-ayrı dövlətlərin vəzifəsi olmaqdan çıxmış və universallaşma mərhələsinə qədəm qoymuşdur. İkinci Dünya müharibəsinin faciələri dövlətlərin bu cür müharibələrin gələcəkdə yol verilməməsi məqsədilə təşkilatlanması zərurətini ortaya çıxardı. Belə təşkilatlanma zərurəti 26 iyun 1945-ci il tarixində Birləşmiş Millətlər Təşkilatının yaradılması ilə nəticələnmişdir, təşkilatın Nizamnaməsində insan hüquq və azadlıqları ilə əlaqədar əks olunmuş məqsədlərə nail olmaq üçün yaradılmış İnsan Hüquqları Komissiyasının hazırladığı və 10 dekabr 1948-ci ildə Baş Assambleya tərəfindən qəbul edilmiş "Ümumdünya İnsan Hüquqları Bəyannaməsi" insan hüquq və azadlıqlarının dünya dövlətləri tərəfindən ali normalar kimi qəbul edilməsinə tarixi və mənəvi baxımdan yüksək qiymət vermişdir.***

Qəbul olunmuş Bəyannamə klassik hüquq və azadlıqlarla (şəxsin toxunulmazlığı, işgəncə və köləliyin qadağan edilməsi, qanunsuz həbsin qarşısını alma, qanun qarşısında bərabərlik, şəxsi həyatın mühafizəsi, mənzil toxunulmazlığı, din, vicdan, fikir və söz azadlıqları, birləşmə hüququ, idarəetmədə iştirak hüququ, ümumi və bərabər səsvermə hüququ) yanaşı, iqtisadi, sosial və mədəni hüquqları da (sosial təminat, əmək hüququ, həmkarlar ittifaqı yaratmaq, bərabər maaş, istirahət, əyləncə, sağlamlıq, təhsil hüquqları, qadın və uşaqların müdafiə olunması, azad şəkildə mədəni, ədəbi fəaliyyət göstərmək hüququ) təsbit etməklə insan hüquqlarının müasir dövrümüzdə dərk edilən mənasını müəyyən etmişdir.

Fəlsəfə üzrə elmlər doktoru Əbülhəsən Abbasov yazır: "1948-ci il Bəyannaməsində təsbit edilməklə universallaşan insan hüquq və azadlıqları təminat və müdafiə baxımından da, artıq ayrı-ayrı dövlətlərin məsuliyyət obyekti olmaqla yanaşı, beynəlxalq birliyin də məsuliyyət obyektinə çevrilmişdir. Başqa sözlə desək, bir dövlətdə insan hüquqlarının təmin edilmə və pozulması məsuliyyəti də universallaşmış olurdu. Bu səbəbdən, həmin hüquqların müdafiəsi üçün beynəlxalq mexanizmlərin yaradılması zəruriyyəti də yaranmışdır. Bu səbəbdən də, Birləşmiş Millətlər Təşkilatı Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin məqsəd və vəzifələrini həyata keçirmək üçün 1966-cı ildə iki beynəlxalq hüquqi sənəd qəbul etdi. Bunlardan birincisi insanların bütün iqtisadi, sosial və mədəni hüquqlardan bərabər istifadə etmələrini təmin etmək öhdəliyi müəyyən edən "İqtisadi, Sosial və Mədəni Hüquqlar haqqında Beynəlxalq Pakt", ikincisi isə insanların bütün mülki və siyasi hüquqlardan bərabər istifadəsini təmin etmək öhdəliyi müəyyənləşdirən "Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakt" olmuşdur. Hər iki sənəd Ümumdünya İnsan hüquqları Bəyannaməsində təsbit olunmuş hüquq və azadlıqları əhəmiyyətli dərəcədə genişləndirmiş və yeni hüquqları da nəzərdə tutmuşdur. "Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakt"ın 28-ci maddəsinə universal səviyyədə müdafiə olunması üçün ilk beynəlxalq mexanizm hesab edilən İnsan Hüquqları Komitəsi yaradılmışdır. Paktda iştirak edən dövlətlər onun 40-cı maddəsinə əsasən, orada tanınan hüquqların həyata keçirilməsi ilə əlaqədar gördükləri tədbirlər və həmin hüquqların istifadəsində əldə edilmiş uğurlar barədə komitəyə dövri məruzələr təqdim etmək öhdəliyi daşıyırlar. Qeyd edim ki, 1999-cu ilin yanvar ayında "Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakt"ın ölüm cəzasının ləğvinə yönəlmiş ikinci fakultativ protokoluna qoşulmaq barədə" Azərbaycan Respublikası Qanunu qəbul edilmişdir."

Beynəlxalq Paktın ən əhəmiyyətli yeniliyi onun 41-ci maddəsinə əsasən, həmin paktın iştirakçısı olan dövlətin istənilən vaxt digər iştirakçı dövlətin bu pakt üzrə öz öhdəliklərini yerinə yetirmədiyini iddia etməsi barədə komitəyə məlumat vermə imkanının təsbit olunması idi. Komitə onun səlahiyyətlərini tanıyan bütün iştirakçi-dövlətlər barədə məlumat almaq və onlara baxmaq səlahiyyətinə malik idi. Həmin pakta dair Fakultətiv Protokolda isə daha mütərəqqi addım atılaraq, protokolun iştirakçısı olan dövləti komitənin bu iştirakçı dövlətin yurisdiksiyasında olan və paktda təsbit olunmuş hər hansı hüququn həmin dövlət tərəfindən pozulmasının qurbanı olduğunu iddia edən şəxslərdən məlumat almaq və onlara baxmaq səlahiyyəti müəyyən edilmişdir. Komitə müraciətlərə baxaraq və maraqlı dövlətlərə məruzələr təqdim edərək, bu hüquq pozuntusu faktlarının araşdırılması və məsələnin tənzimlənməsi, nəticələr barədə dövlətin dövri hesabatında məlumat verilməsini tövsiyə edir.

Ə.Abbasovun fikrincə, Birləşmiş Millətlər Təşkilatı çərçivəsində mövcud olmuş insan hüquqlarının müdafiəsi məqsədilə yaradılmış digər bir qurum isə BMT Nizamnaməsinin 68-ci maddəsinə uyğun olaraq, BMT-nin İqtisadi və Sosial Şurasının ilk iclasında 10 dekabr 1948-ci ildə təsis edilmiş İnsan Hüquqları üzrə BMT Komissiyasıdır. Komissiyanın mandatı ayrı-ayrı ölkələrdə insan hüquqlarının vəziyyətinin öyrənilməsi, monitorinq və məruzə hazırlamaq idi. Komissiyanın fəaliyyətini iki dövrə bölmək olar. 1947-1967-ci illəri əhatə edən absentizm dövründə komissiya insan hüquqlarının təşviqi və bu sahədə qəbul edilmiş müqavilələrdəki müddəaların həyata keçirilməsində dövlətlərə yardım etmək vəzifəsi daşıyırdı. Bu dövrdə komissiya insan hüquqlarının pozulmasına yol vermiş dövlətləri, suverenlik prinsipinə hörmət baxımından, "istintaq etmək və pisləmək" səlahiyyətinə malik deyildi. Afrika və və Asiyada başlayan dekolonizasiya dövründə, xüsusən də, Cənubi Afrikada kütləvi aparteid cinayətlərinin baş verməsi ilə əlaqədar BMT-nin insan hüquqları məsələsində daha fəal siyasət yürütməsini tələb edən dövlətlərin təzyiqi ilə 1967-ci ildə komissiya interventsionizm siyasətini qəbul etdi, Bu dövrdən başlayaraq, komissiya ayrı-ayrı dövlətlərdə insan hüquqlarının pozulmasını araşdırmaq və məruzə təqdim etmək səlahiyyətini əldə etdi. Komissiyanın gördüyü işin arzu olunan nəticəni verməməsi və qurumun siyasiləşməsi iddiasının ortaya çıxması, artıq cəmiyyətin ona etimadını itirməsilə və insan hüquqları sahəsində fəaliyyət göstərən ictimai təşkilatların, bəzən isə, elə dövlətlərin özlərinin tənqidinə məruz qalması ilə nəticələndi. Komissiya 27 may 2006-cı ildə yekun iclasını keçirərək, öz yerini 15 mart 2006-cı ildə BMT Baş Assambleyasının Qətnaməsi ilə yaradılmış yeni quruma - BMT-nin İnsan Hüquqları Şurasına verdi.

Ə.Abbasov daha sonra yazır: "Birləşmiş Millətlər sistemində hökumətlərarası qurum olan BMT-nin İnsan Hüquqları Şurası, əsasən, üç elementi ilə səciyyələnir. Bunlardan birincisi, insan hüquqlarına dair Universal Dövri Hesabatın hazırlanması, ikincisi Şuraya insan hüquqları ilə əlaqədar mövzular barədə tövsiyə və məsləhət verəcək Məşvərət Komitəsinin yaradılması, üçüncüsü isə Şuraya insan hüquqlarının pozulması barədə fərd və təşkilatlardan şikayətlər təqdim etmək üçün Şikayət Prosedurlarının müəyyən olunması idi.

Birləşmiş Millətlər Təşkilatının Beynəlxalq Hüquq və 1948-ci il Ümumdünya İnsan Hüquqları haqqında Bəyannaməsində təsbit olunmuş insan hüquqlarının təşviqi və müdafiəsi ilə məşğul olan digər qurumu Baş Assambleya tərəfindən 20 dekabr 1993-cü ildə təsis edilmiş İnsan Hüquqları üzrə Birləşmiş Millətlərin Ali Komissiyanın Ofisidir. Ofisə İnsan Hüquqları üzrə Ali Komissar rəhbərlik edir. Ali Komissar BMT sistemində insan hüquqları üzrə fəaliyyəti əlaqələndirir və İnsan Hüquqları Şurasına nəzarət edir.

İnsan hüquqları sahəsində Birləşmiş Millətlər Təşkilatının himayəsi altında qəbul edilmiş "İrqi ayrıseçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Beynəlxalq Konvensiya", "Qadınlara qarşı Ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Konvensiya", "Soyqırımı Cinayətinin qarşısının alınması və onun cəzalandırılması haqqında Konvensiya", "Köləliyin ləğv edilməsi haqqında Konvensiya", "Məcburi əməyin ləğv edilməsi haqqında Konvensiya", "Uşaq hüquqları haqqında Konvensiya" və s. beynəlxalq hüquqi sənədlərin insan hüquq və azadlıqlarının qorunması üçün beynəlxalq hüquqi çərçivə yaratdığını söyləmək olar."

Regional səviyyədə insan hüquqlarının qorunması ilə əlaqədar qəbul edilmiş ən mütərəqqi sənəd, heç şübhəsiz ki, Avropanın demokratik dövlətləri tərəfindən 1949-cu ildə imzalanmış və 3 sentyabr 1953-cü ildə qüvvəyə minmiş Avropa İnsan Hüquqları və Əsas Azadlıqların Müdafiəsi Konvensiyası və ona əlavə edilmiş Protokollardır. Konvensiyada yaşamaq haqqı (m.2), işgəncə (m.3), kölәlik və məcburi əməyin qadağan olunması (m.4), azadlıq və şəxsi toxunulmazlıq haqqı (m.5), ədalətli mühakimə (m.6), şəxsi həyatın və ailənin müdafiəsi (m.8), düşüncə, vicdan və din azadlığı (m.9), ifadə azadlığı (m.10), birləşmək və sərbəst toplaşmaq azadlığı (m.11), ailə qurmaq hüququ (m.12), müraciət hüququ (m.13) nəzərdə tutulur. Əlavə Protokollar isə mülkiyyət, təhsil, azad seçki, səyahət hüquqları, habelə, borca görə azadlıqdan məhrumetmənin, vətəndaş və əcnəbilərin kütləvi şəkildə deportasiyasının qadağan edilməsi, ölüm cəzasının ləğvi, məhkəmə səhvinə görə zərərçəkən şəxsin təzminat istəmək, eyni cinayətə görə iki dəfə məhkum edilməmə haqqı, evlilikdə qadın-kişi bərabərliyi kimi hüquqları tənzimləyir.

Ə.Abbasovun qeyd etdiyi kimi, Avropa Konvensiyası insan hüquqlarının müdafiəsinin təmin olunması baxımından dövlətin məhkəmə hakimiyyətindən üstün bir struktur - Avropa İnsan Hüquqları Məhkəməsini yaratmış oldu. Məhkəmə dövlətlərin Konvensiyada əks olunmuş öhdəliklərinə əməl etmələri üçün yüksək mənəviyyata malik və yüksək hakim vəzifəsinə təyin olunmaq üçün lazımi tələblərə cavab verən şəxslərdən seçilmiş hakimlərdən təşkil edilir (m.19-22). Konvensiyanın 33-cü maddəsinə əsasən, iştirakçı dövlətlərdən biri Konvensiyada nəzərdə tutulan hüquqların pozulmasına görə digər iştirakçı dövlətdən şikayət edərək, məhkəməyə müraciət edə bilər. Konvensiyanın 34-cü maddəsi isə iştirakçı dövlət tərəfindən hüquqlarının pozulduğunu iddia edən istənilən şəxsin, qeyri-hökumət təşkilatının və ya fərdlər qrupunu məhkəməyə müraciət etmək imkanını nəzərdə tutur. Konvensiya iştirakçı dövlətlərin məhkəmə qərarını icra etməsi öhdəliyini də müəyyən etmişdir. Müasir dövrdə Avropa İnsan Hüquqları Məhkəməsini insan hüquqlarının beynəlxalq səviyyədə müdafiə olunması üçün ən mütərəqqi və effektli mexanizmi hesab etmək olar.

**VAHİD ÖMƏROV,**
**fəlsəfə üzrə fəlsəfə doktoru**




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

## "Nar" korporativ sosial məsuliyyət layihələrini davam etdirir

"Nar" özünün korporativ sosial məsuliyyət (KSM) strategiyası çərçivəsində əhəmiyyətli sosial aksiyalar həyata keçirməkdə davam edir. Mobil operator fiziki məhdudiyyətli insanlara qayğı göstərmək və onların cəmiyyətə inteqrasiya olunması istiqamətində müxtəlif addımlar atır. "Nar"-ın növbəti layihəsi eşitmə və nitq məhdudiyyəti olan insanlara dəstəkdir. Mobil operator eşitmə və nitq məhdudiyyəti olan insanların öz yaxınları və cəmiyyət ilə daha rahat ünsiyyət qurmalarını asanlaşdıran xüsusi tədris vəsaiti hazırlayır. "Eşitmə və Nitq Məhdudiyyətli Şəxslərə Sosial Yardım" İctimai Birliyinin dəstəyi ilə hazırlanan vəsait yaxın vaxtlarda təqdim ediləcək. Qeyd edək ki, "Nar" paytaxt Bakı ilə yanaşı, bölgələrdə yaşayan fiziki məhdudiyyətli gəncləri daim diqqətdə saxlayır. Mobil operator ünsiyyət məhdudiyyətli gənclərin bilik və bacarıqlarını artırmaq, onların gələcək karyeralarına töhfə vermək və mənəvi dəstək göstərmək məqsədilə, müxtəlif bölgələrdə "Təlim məktəbi" layihəsini reallaşdırıb. Nəticədə, fiziki məhdudiyyəti olan gənclər müxtəlif peşələrə yiyələnib.

"Azerfon"un İctimaiyyətlə əlaqələr departamentinin rəhbəri Əziz Axundovun sözlərinə görə, mobil operator bu cür sosial layihələri genişləndirməyi nəzərdə tutur: ""Nar" telekommunikasiya sahəsi ilə yanaşı, cəmiyyət üçün həssas olan məsələlərdə effektli addımları ilə seçilir. Xüsusilə də, fiziki məhdudiyyəti olan şəxslərlə bağlı uzunmüddətli və ardıcıl layihələr gerçəkləşdirir. "Nar"-ın növbəti sosial layihəsinin də uğurlu və səmərəli olacağına inanırıq".

Qeyd edək ki, fiziki məhdudiyyətli şəxslərə dəstək, təhsil və maariflənmənin inkişafı, gənclər arasında idmanın təbliği "Nar"-ın KSM strategiyasının ən vacib istiqamətləridir. Mobil operator gənclərin oxumağa həvəsini artırmaq, təhsilin önəmini aşılamaq, eyni zamandan fiziki məhdudiyyəti insanların cəmiyyətə inteqrasiya olunması istiqamətində bir çox uğurlu layihələr gerçəkləşdirib. 2018-ci il ərzində mobil operator KSM strategiyası çərçivəsində 12 irimiqyaslı sosial layihələr həyata keçirib.

"Nar" KSM strategiyası haqqında ətraflı məlumatı nar.az internet səhifəsindən öyrənmək olar. "Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" 2,1 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir.

## Dismarfobiyanın müalicəsinə vaxtında başlanılanda daha yaxşı nəticə əldə etmək olur

Çoxlu fobiya növləri var və onlar həyatımızın ayrılmaz hissəsinə çevrilib. Ən çox yayılan fobiya növlərindən biri də dismorfobiyadır. Dismorfobiya insanın bədən quruluşundakı çatışmazlıqlardan kompleks yaratması və bu problemlərin normal həyata təsir etməsidir.

Azərbaycan Pedaqoji Universitetinin müəllimi, psixologiya üzrə fəlsəfə doktoru Yeganə Əsgərovanın dediyinə görə, "güzgü xəstəliyi" kimi tanınan bu fobiyanın əslində düşünüldüyü qədər nəzərə çarpmayan qüsurların həddən artıq şişirdilməsidir. Həmin şəxs bu kiçik qüsuruna xüsusi fikir verir və onunla daim məşğul olur: "Dismorfobiyanın yeniyetməlik dövründə meydana çıxması bəzən insanların düşüncəsində sağalmaz izlər qoyur. Bu zaman onlar ətrafdakıların tənəsindən utanır və bu da onların psixikalarında çatışmazlıqların əmələ gəlməsinə səbəb olur. Dismarfobiyanın üstünə nə qədər tez düşülsə, o qədər yaxşı nəticə əldə etmək mümkündür. İnsanın hobbi və maraq dairələrini inkişaf etdirməklə onu özünə aludəçilikdən xilas etmək olar".

Psixoloqun verdiyi məlumata görə, dismarfobiyanın müxtəlif əlamətləri var. Bunlara güzgü qarşısında çox dayanmaq, uydurma fikirlər, cəmiyyətdən uzaqlaşma, fərdilik, diqqətin yalnız öz çatışmazlıqlarına yönəlməsi və s. aiddir. Ona görə də mütəxəssislər haqlı olaraq dismarfobiyadan əziyyət çəkənlərin psixoloqlara müalicə etməsini daha münasib hesab edirlər. Kompleks müalicə isə daha yaxşı səmərə verir. Bu zaman bədəndə qüsur olmadığını düşünür və özünü olduğu kimi qəbul edir.

## Elan

Hüseynov Tələt Ağa oğluna məxsus Bakı şəhəri, Xəzər rayonu, Buzovna qəsəbəsi, B-147 saylı sahədə yerləşən torpaq sahəsinə dair JN-15076 D KOD 00301016 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

# Azərbaycan beynəlxalq idman yarışları məkanına çevrilib

***Ölkəmizin sosial-iqtisadi inkişafı sahəsində müəyyən olunmuş siyasət respublikamıza uğurlar gətirməklə yanaşı, onun dünya miqyasında imicini də yüksəldib. Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu siyasi və iqtisadi kursunu uğurla davam etdirən, ideyalarını gerçəkləşdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin apardığı siyasətinin məntiqi nəticəsi olaraq, ölkənin davamlı iqtisadi inkişafı təmin edilib, yerlərdə sosial-mədəni infrastruktur obyektləri yenidən qurulub, əmək tutumlu və rəqabət qabiliyyətli yeni istehsal, habelə, xidmət müəssisələri istifadəyə verilib.***



Bütün bunlarla yanaşı, Azərbaycan dünyanın idman arenasında artıq özünə layiqli yer tutur və beynəlxalq yarışlara ev sahibliyi edir. Dünya idmanının tarixində ilk dəfə keçirilən Avropa Oyunlarına ev sahibliyi etmək missiyasının Bakıya həvalə edilməsi Azərbaycana olan inamın nəticəsi idi. Azərbaycan bu oyunların standartlarını və səviyyəsini təmin edə bildi. Dünyanın 50 ölkəsinin 6 min idmançısının iştirak etdiyi I Avropa Oyunlarında Azərbaycan təmsilçilərinin 21 qızıl medalı qazanması və 21 dəfə Azərbaycan bayrağının yüksəldilməsi, Dövlət Himninin səsləndirilməsi idmana olan qayğının nəticəsi idi. Dünyanın 17 gün ərzində izlədiyi bu elit oyunlar təkcə qitədə deyil, dünya miqyasında mötəbər idman tədbiri kimi tarixiləşdi.

Azərbaycanın 2017-ci ildə 4-cü İslam Həmrəyliyi Oyunlarına ev sahibliyi etməsi də ölkəmizin idman arenasında söz sahibi olmasını təsdiqləyir. Dünya və islam aləmi üçün çox önəmli idman yarışmasının ölkəmizdə təşkili dünya miqyasında nüfuzumuzun göstəricisidir. 57 ölkəni təmsil edən idmançıların qatıldığı "Bakı-2017" IV İslam Həmrəyliyi Oyunlarının əsas şüarı "Həmrəylik bizim gücümüzdür" oldu. Oyunlar bir daha Azərbaycanın dünyada təbliği baxımından əhəmiyyətli rol oynadı. Oyunlar haqqında hərtərəfli məlumatı əks etdirən internet portalı hazırlandı və dünya mediasında İslam Həmrəyliyi Oyunlarının keçirilməsi barədə informasiya yayımlandı.

Əminliklə demək olar ki, Azərbaycanda son illər keçirilən beynəlxalq tədbirlər respublikamızın imicinə müsbət təsir göstərir. Bu gün Azərbaycan, sözün əsl mənasında, sabitlik və əmin-amanlıq məkanıdır. Respublikamızda hökm sürən və ardıcıl səciyyə daşıyan sabitliyin əsasında duran başlıca faktor isə hakimiyyətin həyata keçirdiyi siyasi kursun ümummilli maraq və mənafeyə tam cavab verməsidir. Bütün bunlar isə, Azərbaycanı yüksək sürətlə inkişaf edən ölkəyə çevirməklə yanaşı, mövcud ictimai-siyasi sabitliyin əsaslarının daha da möhkəmlənməsini şərtləndirən əhəmiyyətli faktor qismində çıxış edir.

Paytaxt Bakıda keçirilən yarım əsrdən artıq tarixi olan "Formula-1"in idman tarixində yeni maraqlı səhifə olduğunu vurğulamaq yerinə düşər. Bakı bütün iştirakçı və qonaqları, hər zaman olduğu kimi, növbəti tədbirdə də ev sahibi olaraq yüksək səviyyədə qarşılayaraq, yarışı uğurla yekunlaşdırdı. 1950-ci ildən etibarən hər il keçirilən "Formula-1"in möhtəşəmliyi üçün paytaxtımızda istənilən şərait yaradılmışdır. Dünyanın elit yarışmalarından olan "Formula-1" dünyanın 190 ölkəsində 500 milyondan artıq azarkeş tərəfindən izlənildi. Bu da paytaxtımız haqqında kifayət qədər məlumatın dünya ictimaiyyətinə çatdırmış oldu. Azərbaycanın dünyaya nümunə olan çoxəsrlik tolerant, mehriban birgəyaşama mədəniyyəti və multikultural mühiti ilə yaxından tanış ola bildilər. "Formula-1" yarışları, bir daha göstərdi ki, Azərbaycan sürətlə inkişaf etməkdədir. Tədbirin təşkilatçıları olan tərəfdaşlarımız da qeyd etdilər ki, onlar belə tədbirlərin keçirilməsi üçün ölkəni seçərkən, ilk növbədə, sabitliyin və təhlükəsizliyin təmin olunduğu, inkişaf gedən ölkələrə etimad göstərirlər. Bakıda keçirilən "Formula-1" həm də yolun uzunluğuna, sürət imkanlarına və ən əsası da şəhər içində keçirilməsinə görə fərqlənir. Müxtəlif qurumların apardığı sorğunun nəticələrinə əsasən, ötənilki "Formula-1" Azərbaycan Qran-Prisi birinci olub. Azərbaycan Qran-Prisi 2018-ci ildəki yürüşdə "Ən yaxşı" nominasiyasında qalib adına namizəddir.

Təbii ki, ölkəmizdə keçirilən idman yarışı ölkənin, şəhərin tanıdılması, turistlərin cəlb olunması baxımından əhəmiyyət kəsb edir. Bu gün Azərbaycan bütün beynəlxalq yarışları qəbul etməyə hazırdır. Azərbaycan qarşıdakı illərdə yenidən bu və ya digər idman yarışlarına sahiblik edəcək və dünyada öz qüdrətini bir daha nümayiş etdirəcəkdir.

Gələn il Bakıda yenidən "Formula-1" yarışları start götürəcək. Yarışın azarkeşlərinə artıq biletlərin satışına başlanılıb. Bu ilin sonuna qədər biletlər 20 faizədək endirimlə Bakının 13 satış məntəqəsində satılır.

Ölkəmizdə keçirilən beynəlxalq idman yarışları, ölkəmiz haqqında formalaşan təəssüratları dəyişir və respublikamızın imicinə müsbət təsir göstərir. Bu gün Azərbaycan, sözün əsl mənasında, sabitlik və əmin-amanlıq məkanıdır. Respublikamızda hökm sürən və ardıcıl səciyyə daşıyan sabitliyin əsasında duran başlıca amil isə dövlət başçısının həyata keçirdiyi siyasi kursun ümummilli maraq və mənafeyə cavab verməsidir. Dünyanın iqtisadi böhran və savaşlar içərisində olduğu bir vaxtda Azərbaycanda keçirilən müxtəlif beynəlxalq tədbirlər uğurlarımızın sırasındadır. Qazandığımız hər bir uğurun əsasında Azərbaycan Prezidenti İlham Əliyevin yürütdüyü məqsədyönlü siyasət və ölkədə hökm sürən sabitlik dayanır.

***Nəzakət ƏLƏDDİNQIZI***


*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 5500